**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "FÜZULİ RAYONUNDA BİZNES MÜHİTİNİN TƏHLİLİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Abbasova Afət Bəxtiyar**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**_________________________ imza**
**“____” _______________ 20__-ci il**

# “FÜZULİ RAYONUNDA BİZNES MÜHİTININ TƏHLİLİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060409-Biznesin idarə edilməsi

**İxtisaslaşma:** Biznesin təşkili və idarə edilməsi

**Qrup:** 116

**Magistrant:**
**Abbasova Afət Bəxtiyar qızı**
**_______________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Hüseynli Aytən Təyyar qızı**
**_____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**__________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Abbasova Afət Bəxtiyar qızı and içirəm ki, “Füzuli rayonunda biznes mühitinin təhlili və Azərbaycan iqtisadiyyatına təsirinin qiymətləndirilməsi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# FÜZULİ RAYONUNDA BİZNES MÜHİTININ TƏHLİLİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: 2020-ci ildə ikinci Qarabağ müharibəsinin qalibiyyətlə nəticələnməsi və bu sayədə ərazilərimizin işğaldan azad olunması ilə bu bölgədə yaşayış üçün yenidən infrastrukturun qurulması, iqtisadi sahələrin canlanması, və bölgə iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına reinteqrasiya edilməsi kimi yeni və aktual məsələlər gündəmə gəldi.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi işğaldan azad olunmuş Füzuli rayonunun iqtisadi potensiyalını araşdırmaq və ərazinin biznes mühitin təhlil edilməsidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işinin aparılmasında təhlil, müqayisəli təhlil, analiz, sintez metodlarından istifadə olunmuşdur. O cümlədən anket-sorğu metodu vasitəsilə Füzuli rayonunda işğaldan sonrakı dövr təhlil edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasını Prezidentin qəbul etdiyi fərman və sərəncamlar, bir sıra hökumət və dövlət orqanlarının tərəfindən verilmiş məlumatlar, iqtisadçı alimlərin məqalələri, gündəlik mətbuat materialları, Azərbaycanda qəbul olunmuş sosial-iqtisadi inkişaf konsepsiyaları, müxtəlif dövlət proqramları, qanunlar, digər qanunvericilik aktları və normativ-hüquqi sənədlər təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Füzuli rayonunun uzun müddət işğal altında olması və həmin dövrə aid dataların mövcud olmaması burada iqtisadi vəziyyətin statistik təhlil edilməsinə maneçilik törədir. Bundan əlavə olaraq bu mövzuda əvvəlki araşdırmaların kifayyət qədər olmaması da tədqiqatın məhdudiyyətlərindəndir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi, iştirakçılar arasında sorğu keçirmək və nəticəni analiz etməkdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Araşdırma rayon və buradakı biznes mühiti haqqında məlumat almaq istəyən insanlar üçün önəmli rol oynayacaq. Rayonun işğaldan sonrakı vəziyyətinin və iqtisadi potensialının təhlil edilməsilə əldə olunacaq nəticələr bölgəyə marağın artılması baxımından çox önəmlidir. Həmçinin burada biznes şəraitinin analizi bölgəyə yeni sahibkarların və investorların cəlb edilməsində də rol oynaya bilər.**



***Açar sözlər: Sahibkarlıq fəaliyyəti, Füzuli hava limanı, kənd təsərrüfatı, biznes mühiti***


# ANALYSİS OF THE BUSİNESS ENVİRONMENT İN FUZULİ DİSTRİCT AND ASSESSMENT OF İTS İMPACT ON THE AZERBAİJANİ ECONOMY

## SUMMARY

**The actuality of the subject: With the liberation of our territories from occupation, new and actual issues such as the reconstruction of infrastructure in the region, the revival of economic spheres and the reintegration of the region's economy into the country's economy came up.**

**Purpose and tasks of the research: The main purpose of the research is studying the economic potential and business environment of the Fuzuli district.**

**Used research methods: Analysis, comparative analysis, analysis-synthesis and the survey method were used in conducting the research.**

**The information base of the research: The research database is based on decrees and disposal of the President, information provided by a number of government and state institutions, articles by economists, daily press materials, concepts of socio-economic development adopted in Azerbaijan, various state programs, laws, other legislative acts and regulations.**

**Restrictions of research: The long occupation period of the Fuzuli region and the lack of data on that period hinder the statistical analysis of the economic situation here. The lack of previous research on this topic is another limitation of the research.**

**The novelty and practical results of investigation: The scientific novelty of the research is to conduct a survey among participants and analyze the results.**

**Scientific-practical significance of results: The results obtained by analyzing the post-occupation period and economic potential of the region are very important in terms of increasing interest in the region. The analysis of the business environment can also play a role in attracting new entrepreneurs and investors to the region.**

***Keywords: Entrepreneurial activity, Fizuli airport, agriculture, business environment***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **RES** | Renewable Energy System, bərpa olunan enerji |
| **XİZ** | Xüsusi İqtisadi Zonalar |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **KİV** | Kütləvi İnformasiya Vasitələri |
| **ÜTT** | Ümumdünya Turizm Təşkilatı |
| **KOB** | Kiçik və Orta biznes |
| **DHMİ** | Dövlət Hava Limanları İdarəsi |

MÜNDƏRİCAT


**GİRİŞ** ..... 8

**I FƏSİL. ÖLKƏMİZDƏ BİZNES MÜHİTİNİN ƏLVERİŞLİLİYİNİN ARTIRILMASI VƏ İNKİŞAFININ NƏZƏRİ ASPEKTLƏRİ** ..... 11

1.1. Regionlarda qeyri-neft sektorunun, sahibkarlığın inkişafı ilə bağlı mexanizmlərin tətbiqi imkanları ..... 12

1.2. Füzuli rayonu da daxil olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biznes sahələrinin inkişfı ilə bağlı görülən tədbirlər ..... 21

**II FƏSİL. FÜZULİ RAYONUNDA BİZNES VƏ İNVESTİSİYA MÜHİTİNİN YAXŞILAŞDIRILMASI İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ** ..... 29

2.1. Füzuli rayonunun iqtisadi əhəmiyyəti və işğaldan əvvəlki dövrdə iqtisadiyyatımızdakı rolunun qiymətləndirilməsi ..... 30

2.2. Füzuli rayonunda mikro və kiçik sahibkarlıq subyektlərinin inkişafı imkanlarının qiymətləndirilməsi ..... 35

**III FƏSİL. FÜZULİ RAYONUNDA BİZNES MÜHİTİNƏ MƏNFİ TƏSİRLƏRİN AZALDILMASI İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR** ..... 44

3.1. Füzuli rayonunda biznes sahələrinin inkişafı üçün zəruri infrastrukturun inkişaf etdirilməsi ..... 44

3.2. İşğaldan azad edilmiş regionların biznes mühitinin qurulması və yaxşılaşdırılması istiqamətində mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətləri ..... 46

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ..... 71

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ..... 73

**ƏLAVƏLƏR** ..... 77

Cədvəllərin siyahısı ..... 81

Qrafiklərin siyahısı ..... 82

# GİRİŞ

**Mövzunun aktuallığı:** 2020-ci ildə ikinci Qarabağ müharibəsinin qalibiyyətlə nəticələnməsi və bu sayədə ərazilərimizin işğaldan azad olunması Azərbaycan tarixi və sosial-iqdisadi inkişafı üçün olduqca önəmli rol oynayır. Ərazilərimizin işğaldan azad olunması ilə bu bölgədə yaşayış üçün yenidən infrastrukturun qurulması, iqtisadi sahələrin canlanması, və bölgə iqtisadiyyatının ölkənin ümumi iqtisadiyyatına reinteqrasiya edilməsi kimi yeni və aktual məsələlər gündəmə gəldi. Belə ki, strukturun bərpası və iqtisadiyyatın yenidən tənzimlənməsi üçün yeni layihələr hazırlanması və icra edilməsi dövlətin əsas prioritetlərindən birinə çevrildi. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" işğaldan azad olunmuş ərazilərə böyük qayıdış planını əks etdirir ki, burada da əsas məqsəd həmin ərazilərdə dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyadır. İşğaldan azad olunan ərazilərin bərpasının sosial-iqtisadi konsepsiyasının hazırlanması onu göstərir ki, bu müddətdə dövlətin qarşısına qoyduğu əsas məqsəd də işğaldan azad olunan ərazilərdə iqtisadiyyatın inkişafı və biznes mühitinin bərpa edilməsidir. Biznesin İnkişafı Agentliyinin agentliyə müraciət edən sahibkarlara işğaldan azad olunmuş ərazilərin iqtisadi və investisiya potensialına dair informasiya, məsləhət, əlaqələndirmə və digər dəstək və xidmətlər göstərilməsi də həmin əraziliərdə biznesin inkişafı məsələsinin dövlət üçün önəmini göstərir.

Azərbaycan Respublikasında müxtəlif sahələrlə bağlı hazırlanan "Strateji Yol Xəritələri" hal-hazırkı dövrdən 2025-ci ilə qədər və 2025-ci ildən sonrakı dövr üçün dövlətin inkişaf planını özündə əks etdirir. Burada kənd təsərrüfatı, turizm, müxtəlif biznes sahələrinin və sektorların inkişafı Strateji Yol Xəritələrinin əsas istiqamətini təşkil edir. Belə ki, Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin güclənməsi və onun yüksək gəlirli ölkələr qrupuna daxil olması dövlətin əsas diqqət mərkəzində olan məsələdir. Hazırkı dövrdə torpaqların işğaldan azad edilməsi burada göstərilen sahələrin hər biri üçün yeni potensial yaradır.

İşğaldan azad edilmiş rayonlardan biri olan Füzuli rayonu da geniş iqtisadi potensiala malikdir. İşğaldan əvvəlki dövrdə Azərbaycanın iqtisadiyyatına əhəmiyyətli rola malik olmuş və xüsusilə də kənd təsərrüfatında ixtisaslaşmışdır.

Rayonun işğaldan azad olunması burada yeni biznes sahələri və müxtəlif sektorların inkişafı üçün şərait yaradır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dissertasiya işi işğaldan azad edilmiş Füzuli rayonunda biznes mühitini və müxtəlif sektorların mümkün inkişafını təhlil edərək, bunun ümümi ölkə iqtisadiyyatına təsirinin araşdırılmasına yönəlmişdir. Qarabağ regionunun işğaldan əvvəki potensialı, mövcud olan təbii ehtiyatlar, torpaq sahələri, iqlim şəraiti və həmçinin işğaldan azad olunduqdan sonra həyata keçirilməsi planlanan layihələr nəzərə alınaraq bölgədə sonrakı dövr üçün kənd təsərrüfatının, turizm sektorunun, biznes subyektlərinin inkişaf perspektivləri N.R.Əliyeva, S.Qandilova, Y.Musayev, A.Cabbarov və s. tərəfindən araşdırılsa da spesifik olaraq Füzuli rayonunu əhatə edən bu tipli araşdırmalar aparılmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın əsas məqsədi işğaldan azad olunmuş Füzuli rayonunun iqtisadi potensiyalını araşdırmaq və ərazinin biznes mühitin təhlil edilməsidir. Qarşıdakı məqsədə çatmaq üçün aşağıda qeyd edilən önəmli vəzifələr yerinə yetirilməlidir:

• Azərbaycanın regionlarında qeyri-neft sektorunun və sahibkarlığın inkişafı ilə bağlı tətbiqi olunan mexanizmlər tədqiq olunur

• Füzuli rayonu da daxil olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biznes sahələrinin inkişfı ilə bağlı görülən tədbirlər təhlil edilir

• Füzuli rayonunun işğaldan əvvəlki dövr üçün iqtisadi sahələrinin inkişafı və ölkə iqtisadiyyatındakı rolu araşdırılır

• Füzuli rayonunda mikro və kiçik sahibkarlıq subyektlərinin inkişafı imkanları qiymətləndirilir

• Füzuli rayonunda biznes sahələrinin inkişafı üçün zəruri infrastrukturun inkişaf etdirilməsi ilə bağlı islahatların təhlili

• İşğaldan azad edilmiş regionların biznes mühitinin qurulması və yaxşılaşdırılması istiqamətində mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətlərinin tədqiqi

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Füzuli rayonudur. Tədqiqatın predmeti isə buradakı biznes mühitinin təhlili və ölkə iqtisadiyyatına olan təsiridir.

**Tədqiqat metodları:** Tədqiqat işinin aparılmasında təhlil, müqayisəli təhlil, analiz, sintez metodlarından istifadə olunmuşdur. O cümlədən anket-sorğu metodu vasitəsilə Füzuli rayonunda işğaldan sonrakı dövr təhlil edilmişdir.

İşğaldan azad edilmiş bölgələrdə, xüsusilədə Füzuli rayonunda biznes mühitini təhlil etmək və əhalinin regiona qarşı münasibətini öyrənmək məqsədilə əhali arasında anonim anket sorğusu keçirilmişdir. Sorğunun nəticələrini analiz etmək üçün SPSS proqramının 28.0.1.1(15) versiyasında istifadə edilmişdir. 200 nəfərin iştirak etdiyi sorğunun nəticələri frekans, etibarlılıq, ortalama, çarpaz tablo analizləri, "Chi-Square", "Fisher-Freeman-Halton Exact", "Phi and Cramer's V" testləri vasitəsilə təhlil edilmiş əldə edilən nəticələrə uyğun təkliflər hazırlanmışdır.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazasını Prezidentin qəbul etdiyi fərman və sərəncamlar, bir sıra hökumət və dövlət orqanlarının tərəfindən verilmiş məlumatlar, iqtisadçı alimlərin məqalələri, gündəlik mətbuat materialları, Qəbul olunmuş digər qanunlar və normativ-hüquqi sənədlər təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Füzuli rayonunun uzun müddət işğal altında olması və həmin işğal dövrünə aid dataların mövcud olmaması burada iqtisadi vəziyyətin statistik təhlil edilməsinə maneçilik törədir. Uzun müddətdə ərzində torpaqların məhv edilməsi və ərazilərin minalanmasının burada əvvəllər inkişaf etmiş olan kənd təsərrüfatı sahəsinə təsirinin, infrastruktur və digər şəraitlər yaradıldıqdan sonra turizm sahəsinin inkişaf səviyyəsini və ya həyata keçirilən layihələrin bölgədə biznes subyektlərinə necə təsir edəceyini dəqiqliklə müəyyənləşdirmək qeyri-mümkündür. Bunun üçün analoji layihələrlə müqayisələr aparılsa da dəqiq hesablamalar aparıla bilməz. Bundan əlavə olaraq bu mövzunun yeni gündəmə gəlmiş aktual bir mövzu olduğunu nəzərə alsaq bu haqda əvvəlki araşdırmaların kifayyət qədər olmaması da aydın məsələdir. 2020-ci ildən etibarən bəzi iqtisadçılar tərəfindən aparılmış az sayılı tədqiqatlar mövzunun dərindən araşdırıla bilməsi üçün kifayyət deyil.

Tədqiqatda istifadə edilmiş sorğunun ən böyük məhdudiyyətlərindən biri onun Bakı şəhərində yaşayan əhali arasında keçirilməsidir. Belə ki, iştirakçılarən fəaliyyət növləri hər sektor üzrə bərabər paylanmamışdır. Hətta 200 nəfər arasında kənd təsərrüfatı ilə məşğul olan yoxdur.

**Tədqiqatın elmi yeniliyi:** Füzuli rayonunda biznes mühitinin təhlili rayon işğaldan azad olunduqdan sonra, 2020-ci ildən, gündəmə gəlmiş aktual məsələdir. Bu məsələ ilə bağlı müxtəlif addımlar atılır. Tədqiqatın yeniliyi, iştirakçılar arasında sorğu keçirmək və nəticəni analiz etməkdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqat zamanı əldə edilən nəticələr bu barədə araşdırmaların olmaması səbəbindən xüsusi əhəmiyyətə malikdir. Araşdırma rayon və buradakı biznes mühiti haqqında məlumat almaq istəyən insanlar üçün önəmli rol oynayacaq. Biznes sahələrinin inkişafı üçün nəzərdə tutulmuş dövlət proqramları və islahatlar haqqında məlumatların fərqli mənbələrdan toplanıb ümumiləşdirilməsi burada fəaliyyət göstərmək istəyən hüquqi şəxslər və sahibkarlıq subyektlərinin daha rahat məlumat toplamasına kömək edəcək. Rayonun işğaldan sonrakı vəziyyətinin və iqtisadi potensialının təhlil edilməsilə əldə olunacaq nəticələr bölgəyə marağın artılıması baxımından çox önəmlidir. Həmçinin burada biznes şəraitinin analizi bölgəyə yeni sahibkarların və investorların cəlb edilməsində də rol oynaya bilər.

# I FƏSİL. ÖLKƏMİZDƏ BİZNES MÜHİTİNİN ƏLVERİŞLİLİYİNİN ARTIRILMASI VƏ İNKİŞAFININ NƏZƏRİ ASPEKTLƏRİ

## 1.1. Regionlarda qeyri-neft sektorunun, sahibkarlığın inkişafı ilə bağlı mexanizmlərin tətbiqi imkanları

Bərpa olunan enerji digər enerji mənbələrindən daha az ətraf mühitə təsir göstərən təmiz enerji mənbələridir. Enerji mənbəyi kimi yaşıl enerji çox vaxt günəş enerjisi, külək enerjisi, geotermal enerji, biokütlə və su elektrik enerjisi kimi bərpa olunan enerji texnologiyalarından əldə edilir. Bu texnologiyaların hər biri müxtəlif yollarla, istər günəş panellərində olduğu kimi günəşdən enerji götürməklə, istərsə də enerji yaratmaq üçün külək turbinlərindən və ya su axınından istifadə etməklə işləyir. Yaşıl enerji ətraf mühit üçün olduqca vacibdir, çünki o, digər yanacaqların mənfi təsirlərini ekoloji cəhətdən daha təmiz alternativlərlə əvəz edir.

Bu gün təxminən 1,6 milyard insan elektrik enerjisi və təxminən 1,1 milyard insan isə içməli su ilə təmin oluna bilmir. Ekoloji cəhətdən təmiz enerji təchizatı dünyanın bütün enerji ehtiyaclarını ödəyə bilər. Təkrar istifadə oluna bilən bu resurslar qısa bir zaman ərzində iqlim dəyişikliyinə əhəmiyyətli dərəcədə töhvə verəcək (Rzayeva Z., Guluyeva A., Miriyeva A., 2021).

Yaşıl enerjinin digər bir üstünlüyü sabit enerji qiymətlərinə səbəb olmasıdır, çünki bu cür mənbələr çox vaxt yerli istehsal olunduğu üçün böhran, qiymət artımları və ya təchizat zəncirinin pozulması kimi halların təsirinə məruz qalmır. Bu səbəbdən də yaşıl enerji dünyanın bir çox hissəsinin enerji ehtiyacları üçün aşağı qiymətli həll yoludur.

Dünya iqtisadiyyatına nəzər saldıqda yuxarıda sadaladığımız səbəbləri də nəzərə alaraq yaşıl iqtisadiyyata keçidin nə qədər önəmli olduğunu və alternativ enerji mənbələrindən istifadənin artırılması planlarını görürük. Yaşıl iqtisadiyyata keçid, yəni dekarbonlaşma, karbohidrogen resurslarına olan tələbatın getdikcə azalmasına gətirib çıxarır. Tələbatın azalması səbəbindən də uzunmüddətli dövrdə neft qiymətləri ilə bağlı gözləntilər burada əhəmiyyətli bir artımın olmayacağı yönündədir. Aşağıdakı cədvədə müxtəlif maliyyə təşkilatlarının və neft qiymətlərinin proqnozlaşdırılması üzrə ixtisaslaşmış agentliklərin Brent markalı neftin qiymətinin 2021-ci il üçün 65,0 ABŞ dolları civarında olacağını və 2022-ci ildə də bu qiymətlərdə kəskin dəyişiklik olmayacağını proqnozlaşdırmışlar.

**Cədvəl 1: Brent markalı neftin 1 barelinin proqnozlaşdırılan orta illik qiyməti, ABŞ dolları ilə**

| Təşkilatlar | 2021 | 2022 |
|---|---|---|
| Beynəlxalq Valyuta Fondu (iyul, 2021)* | 64,7 | 63,0 |
| Dünya Bankı (iyun, 2021) | 62,0 | 62,0 |
| Asiya İnkişaf Bankı (iyul, 2021) | 67,0 | 64,0 |
| ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EİA) (avqust, 2021) | 68,7 | 66,0 |
| Fitch Ratings (mart, 2021) | 63,0 | 55,0 |

**Mənbə:** Azərbaycanın iqtisadi xəbər saytı, Marja (https://marja.az/75916/hokumet-2022-ci-ilin-budcesi-ucun-goturduyu-neftin-qiymetini-aciqladi, 2021)

Neftin və neft gəlirlərinin Azərbaycan üçün iqtisadi əhəmiyyəti çox olsa da gələcəkdə neft-qaz gəlirlərindən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyatın qurulması ölkə üçün önəmli bir məsələdir. Makroiqtisadi sabitliyi qoruyub saxlamaq və iqtisadiyyatın şaxələndirilməsi iqtisadiyyatın inkişafı üçün vacib məqamdır. Bu səbəbdən də qeyri-neft sektorlarının və sahibkarlığın inkişafına dövlət tərəfindən dəstək göstərilir. Sahibkarlıq subyektlərinin inkişafını tənzimləmək azad rəqabət və mümbit investisiya mühiti yaratmaq dövlətin iqtisadi siyasətinin əsas hissələrindəndir.

Dünyada baş verən qlobal böhranın ölkə iqtisadiyyatına təsirlərinin azaldılnması və neft gəlirlərindən asılılığı mümkün qədər minimuma endirmək məqsədilə Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı sistemli tədbirlər həyata keçirilməkdədir. Bu məqsədləri həyata keçirmək üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” təsdiq edilmişdir.

2016-cı ilin əvvəlindən qeyri-neft sektorlarının inkişafı ilə əlaqədar aparılan yeni islahatlar kompleksi artıq nəticə göstərməkdədir. Belə ki, artıq sənaye parkları salınıb, bir sıra yeni iş yerləri açılıb, yeni, keyfiyyətli və rəqabətədavamlı məhsulların istehsal prosesi davam etdirilir. Buradakı əsas məqsəd daxili istehsalı artıraraq rəqabət qabiliyyətinin gücləndirilməsidir. Yerli istehsalın artırılması nəinki yerli məhsullarla özünü təminetmə səviyyəsini yüksəldərək idxalın əvəzlənməsi fəaliyyətini dəstəkləyəcək, həmçinin ixrac imkanlarının artırılmasına da gətirib

çıxaracaq ("Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", 2016).

Hər bir ölkədəki hökumət və biznes qurumları bir çox cəhətdən bir-birinə bağlıdır və bir-birindən asılıdır. Günümüzün qlobal iqtisadiyyatında iş adamları və sahibkarlar iqtisadiyyatın hərəkətverici qüvvəsidir. Planlı iqtisadiyyatda, həmçinin bazar iqtisadiyyatında ölkənin biznes fəaliyyətinin formalaşmasına nəzarəti hökumət öz əlində saxlayır. Sabit və yuxarı iqtisadi inkişafın qorunması üçün dövlət biznes müəssisələri üçün uyğun mühit yaratmağa çalışmalıdır. Bununla bərabər biznes müəssisələri işlərin rahat şəkildə aparılması və bərabər şərait yaradıldığından əmin olmaq üçün hökumətlərin qanunlarına riayət etməlidirlər. İqtisadiyyatın və millətin rifahı üçün hökumət və müəssisələr arasında balanslı bir əlaqə lazımdır. Bruce D. tərəfindən hazırlanmış "(Kiçik) işgüzar fəaliyyət və dövlət iqtisadi böyüməsi: ölçüsü vacibdirmi?" məqaləsinə əsasən, 1988-2002-ci illərdə ABŞ məlumat panelindən istifadə edərək, kiçik və böyük sahibkarlıq fəaliyyətinin ölkədə adambaşına düşən gəlirə (SPI), ümumi milli məhsula (GSP) və ümumi dövlət məşğulluğuna təsirini araşdırıb. Biznes fəaliyyəti tədbirləri şirkətlərin, müəssisələrin və işçilərin illik sayımlarını, əmək haqqı xərclərinin dollar dəyərini və müəssisələrin illik yaranma və ləğv olunmalarını əhatə edir. Araşdırmanın nəticəsinə əsasən yeni və kiçik firmaların artımı müsbət olduqda ümumi iqtisadi artım da daha sürətli olur (Bruce D., 2009).

Bu səbəbdən də sabit və yüksək bir iqtisadi böyümənin qorunması üçün dövlət iş quruluşları üçün uyğun mühit yaratmağa çalışmalıdır. Bu səbəblə də, dövlət müxtəlif formalarla müəssisələri və sahibkarları dəstəkləyir, biznes sahələrinin inkişafını təmin edir.

Bu məqsədlərə nail olmaq üçün uzun müddətdir ki, bir çox islahatlar həyata keçirilir. Belə ki, Azərbaycanda regionların inkişafı sahəsində dövlət proqramları qəbul edilmiş, həmçinin regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlar imzalanmışdır. Bütün bu tədbirlər ölkədə qeyri-neft sahələrinin canlanmasına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq fəaliyyəti üçün lazımi mühitinin

yaxşılaşdırılmasına, xarici investisiya qoyuluşunun artmasına yönəlmişdir. Bununla da ölkə ərazisində yeni müəssisələrin, iş yerlərinin açılılması və nəticədə, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və yoxsulluq səviyyəsinin aşağı düşməsi hədəflənir.

2004-2018-ci illər ərzində həyata keçirilən tədbirlərin bu sahələrin sürətlə inkişaf etməsindəki rolu böyükdür. Bu illər ərzində üç dəfə, 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə, dövlət proqramları qəbul olunmuşdur. Bu proqramlardakı əsas strategiya ölkədə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi idi.

**Cədvəl 2: İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı (əsas qiymətlərlə)**




**Mənbə**: Dövlət Statistika komitəsinin məlumatına əsasən müəllif tərəfindən tərtib edimişdir (https://www.stat.gov.az/source/system_nat_accounts/az/007_1.xls).

Cədvəl 2 statistika Komitəsinin saytından götürülən məumatlar əsasında hazırlanmışdır. 2004-cü ildən 2018-ci ilə qədər olan dövrü əhatə edən cədvəldə neft və qeyri-neft sektorları üzrə ÜDM istehsalı göstərilmişdir. Buradakı qiymətlər milyon manatla göstərilmişdir. Cədvələ əsasən 2004-2018-ci illərdə qeyri-neft sahəsinin inkişaf etdirilməsi ilə bağlı islahatların müsbət nəticə verdiyini deyə bilərik.

Bu cür dövlət proqramlarının icra olunduğu müddətlərə nəzər salsaq 2004-2018-ci illər ərzində ÜDM-in 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə,

sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artdığını müşahidə edə bilərik. Bu artımı həmin müddət ərzində açılan 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə ilə əlaqələndirə bilərik. Həmin dövrdə ölkədə işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə qədər düşmüşdür. Regionların qarşıdan gələn illərdə də inkişafını təmin etmək üçün dövlət proqramları çərçivəsində layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, ölkə regionlarının sosial-iqtisadi inkişafı sahəsində görülmüş tədbirlərin növbəti illərdə də davam etdirilməsi, o cümlədən infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, həmin regionlarda yaşayan əhalinin məşğulluq səviyyəsinin və maddi rifahının yüksəldilməsi məqsədi ilə "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Bu müddət ərzində Azərbaycanın ticarət əlaqələri də genişləmiş, 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparılmışdır. Dövlət proqramlarının icrası dövründə qeyri-neft ixracı da 4.2 dəfə yüksəlmişdir (Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı, 2019).

2018-ci ilə aid statistik məlumatlara əsasən 2018-ci ildə özəl sektorun ÜDM-dəki payı 80 faizdən, məşğulluqda isə 75 faizdən çox olmuşdur. Həmin ildə artıq dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektləri 950 mindən daha çox idi. Bu cür sahibkarlıq subyektlərinin 66,6 faizi regionların payına düşmüşdür (Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı, 2019).

Görülən işlərin təsirini və əldə edilən uğurları beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da görmək mümkündür. Dünya Bankının hər il verdiyi "Doing Business" hesabatları Azərbaycanda biznes sahəsinin inkişafını aydın bir şəkildə göstərir. Belə ki, "Doing Business 2019" hesabatına əsasən Azərbaycan 2018-ci illə müqayisədə reytinqdə 32 pillə irəliləmiş və 25-ci pilləyə gəlmişdir. Bu hesabata əsasən, ölkə 10 indikatordan 8-i üzrə əvvəlki mövqeyini daha da yaxşılaşdırmışdır. Azərbaycan dünyanın ən çox islahat aparan 10 dövləti siyahısına daxil edilmiş və hətta dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur (Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı, 2019).

Dövlətin sosial-iqtisadi inkişaf planına həmçinin əhalinin gəlirlərinin artırılması, minimum əmək haqqının və bu yolla da əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı islahatlar daxildir. Görülən tədbirlərin nəticəsidir ki, ölkədə orta aylıq əmək haqqları ildən ilə artmışdır. Həmin dövrə nəzər saldıqda burada əmək haqqının orta aylıq göstəricisinin 7 dəfə, pensiyaların orta aylıq göstəricisinin 9,4 dəfə daha çox olduğunu görə bilərik. 2004-cü ildə 44.7 faizə bərabər olan yoxsulluq səviyyəsi 2018-ci ildə 5.1 faizə qədər düşmüşdür (Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı, 2019).

Biznes sahələrinin və iqtisadiyyatın inkişafındakı vacib məqamlardan biri də sərmayə qoyuluşları və investisiyalardır ki, bu da 2004-2018-ci illər ərzində 244.9 milyard ABŞ dollarına çatmışdır (Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı, 2019).

Ölkənin davamlı iqtisadi inkişafının və rəqabətə davamlılığının təməlində duran məsələlərdən biri də innovasiya xarakterli texnologiyaların tətbiq edilməsidir. Bu səbəbdən də bu məsələ sosial-iqtisadi inkişaf planının əsas hissələrindən birinə çevrilmişdir. Yeni texnologiyaların tətbiqi sənayedə işgüzar fəallığın artırılmasında, yeni iş yerlərinin açılmasında, sahibkarlıq subyektlərinin inkişafında önəmli rol oynamışdır. 2019-cu ilin məlumatında sənaye məhsulunun ümumi həcmində özəl sector 80 faizdən çox paya malikdir (Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı, 2019).

Dünya iqtisadiyyatının böhranla üzləşdiyi bir dövrdə Azərbaycanda sənayenin müxtəlif sahələrində və qeyri-neft sektorunda artım müşahidə edilmişdir. Bu məsələdə yuxarıda sadaladığımız tədbirlər və islahatlardan başqa dövlətin sahibkarlıq fəaliyyətini dəstəkləmək üçün istifadə etdiyi aşağıdakı vasitələr də önəmli rol oynayır.

- Xüsusi iqtisadi modellər
- Subsidiyalar
- Vergi güzəştləri və azadolmaları
- Güzəştli kreditlər

Qeyri-neft sektorunun inkişafını davam etdirmək, rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı məqsədilə innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, ölkədə istehsalı və istehsal sahəsindəki məşğulluğu artırmaq məqsədilə regionlarda sənaye parklarının və sənaye məhəllələrinin salınması ilə bağlı tədbirlər görülmüşdür.

Ümumiyyətlə dünyanın bir çox aparıcı ölkələrində sahibkarlığın inkişaf etdirilməsi məqsədilə müxtəlif iqtisadi modellər tətbiq edilir. Xüsusi iqtisadi zonalar (XİZ) bu cür modellerin biridir. Bu tipli zonaların yaradılmasındakı əsas məqsəd ölkədə əsas sahələrinin inkişaf etdirilməsi, ölkəyə yerli investisiyalarla yanaşı xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması, texnologiya ilə bağlı sahələrin inkişafının təmin edilməsidir. Hal-hazırda dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən XİZ-lərin sayı 1000-i keçmişdir. XİZ-lərin Asiya və Sakit Okean regionundakı sayı 500-ə qədərdir, Amerika qitəsi ölkələrində 200-dən daha çoxu, Yaxın Şərq və Afrika ölkələrində 200-dən çoxu və Avropada isə 100-dən çoxu yerləşir (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, 2022).

Xüsusi iqtisadi zonaların, sənaye parklarının və məhəllələrinin, biznes inkubatorların tətbiq edilməsi məsələsi Azərbaycanda da sahibkarlıq sahəsinin inkişafı üçün önəmli rol oynayır. Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılmasındakı əsas məqsəd buraya yerli və xarici investisiyaların cəlb edilməsi, investisiya üçün lazım olan mühitinin daha da yaxşılaşdırılıması, yeni rəqabətqabiliyyətli və səmərəli istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsidir.

Müasir istehsal infrastrukturuna malik sənaye parklarının, sənaye məhəllələrinin və texnologiyalar parkının yaradılması ilə ölkədə sənaye sahələrinin inkişafı təmin olunmuşdur. Sənaye parklarının yaradılmasındakı məqsəd istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafına yönəldilmişdir. Bu cür sənaye parklarının yaradılması sayəsində ölkənin qeyri neft sektorunun davamlı inkişafı təmin edilmiş, ölkə iqtisadiyyatının ixrac qabiliyyəti artırılmış, eləcə də rəqabətqabiliyyətli və idxalı əvəz edən məhsullar daha çox istehsal edilməyə

başlanmış, ətraf rayonlardakı əhalinin məşğulluq səviyyəsi artmışdır (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, 2022).

Biznes subyektlərinə dövlət dəstəyinin bir digər növü də subsidiyaların verilməsidir. Müxtəlif dövlət qurumları sağlamlıq, mənzil, rifah, nəqliyyat, ictimai təhlükəsizliyi qoruma və digər məsələlərə yeni bir yanaşma təşviq etməkdə maraqlı olduqları zaman subsidiyalar təklif edirlər. Bu gün ictimai bir iş və ya ictimai maraq doğuran bir məsələ ilə bağlı sahədə fəaliyyət göstərən təşkilatlar bu cür subsidiyalardan yararlana bilirlər. Hər hansısa bir sahənin inkişafı üçün və yaxud istehsal əhalinin tələbini qarşılamadığı zaman sahibkarları həmin biznes sahəsinə daha çox təşviq etmək üçün dövlət subsidiyalardan istifadə edir.

Aqrar sənayenin inkişafı Azərbaycan dövlətinin həmişə diqqət mərkəzində olmuşdur. Bu səbəbdən də əvvəlki illərin məlumatlarında da həmin dövrlərdə aqrar subsidiyaların verilməsini müşahidə edə bilərik. 2021-ci ilə aid olan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin verdiyi məlumata görə dizel yanacağının qiymətində baş vermiş dəyişikliklərin burada kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan əhaliyə mənfi təsir göstərməsinin qarşısının alınması üçün dövlət müəyyən tədbirlər həyata keçirib. Bu məqsədlə Aqrar Subsidiya Şurası kənd təsərrüfatı bitkiləri üzrə 2021-ci ildə fermerlərə əlavə əkin subsidiyası verilməsi barədə qərar qəbul edib. Şuranın qərarında yeni əkin əmsalları öz əksini tapıb. Tarif (qiymət) Şurasının dizel yanacağının qiymətini dəyişdirməsi nəticəsində fermerlərin bitkilərin becərilməsi ilə bağlı yaranmış əlavə xərclərini kompensasiya edilməsi məqsədilə əkin əmsallarının artırılması nəzərdə tutulmuşdur. Əkin subsidiyası fermerlərin mineral gübrə, biohumus, pestisid, sertifikatlı toxum və ting alınması ilə əlaqəli olan məsrəflərinin müəyyən hissəsini kompensasiya edir. (Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, 2021).

Bundan əlavə Nazirlər Kabinetinin qərarına əsasən mikro, kiçik və orta sahibkarlara elm təhsil və tədqiqat ilə bağlı layihələrdə dəstək verilməsi nəzərdə tutulmuşdur. KOBİA-nın həyata keçirdiyi müsabiqə vastəsilə verilən qrantlar, mənfəət məqsədli təşkilatlar üçün araşdırma və inkişaf layihələrini maliyyələşdirmə

məqsədi daşıyır (Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası, 2020).

Vergi güzəştləri ənənəvi olaraq hökumətlər tərəfindən müəyyən bir iqtisadi məqsədə təşviq etmək üçün vasitə kimi istifadə edilmişdir. Bunlar seçilmiş vergi ödəyiciləri qrupuna təklif olunan və güzəştlər, vergi azadolmaları, kreditlər, investisiya müavinətləri, güzəştli vergi dərəcələri və idxal tarifləri (və ya gömrük rüsumları) və vergi borcunun təxirə salınması şəklində olan güzəştlərdir.

“Evaluating State and Local Business Tax Incentives” məqaləsindəki məlumatlar göstərir ki, Ştat hökumətləri biznes sahəsinin inkişafına dəstək olmaq üçün şirkət vergilərini azalda bilər. Korporativ vergi dərəcəsinin endirilməsi əyalətdəki bütün eyni qrup şirkətlərə vergi hesablarını azaldaraq mexaniki olaraq fayda verir. Eyni zamanda yeni firmaların daxil olmasına və mövcud firmaların genişlənməsinə təşviq edir (Slattery C., 2020).

XİZ-lərin biznes sahəsindəki önəmi haqqında danışdıq. Sahibkarları burada fəaliyyətə təşviq etmək məqsədilə müxtəlif vergi güzəştlərindən istifadə olunur. Belə ki, biznes sahələrinin inkişafı üçün yaradılan sənaye və texnologiyalar parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirləri və parkların rezidenti olan hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri 7 il müddətinə gəlir və mənfəət vergisindən, o cümlədən ƏDV-dən azaddırlar (Azərbaycan Respublikasının Vergi Məcəlləsi).

Eyni zamanda, parkların rezidenti olan hüquqi və fiziki şəxslər parklardakı əmlaka və istifadə etdikləri torpaqlara görə əmlak və torpaq vergilərindən 7 il müddətinə, parkların idarəedici təşkilatı və operatoru parklardakı əmlaka və istifadə etdikləri torpaqlara görə əmlak və torpaq vergilərindən müddət qoyulmadan azad olunur (Azərbaycan Respublikasının Vergi Məcəlləsi).

Bundan əlavə sahibkarlıq sahəsinin inkişafı üçün və yeni sahibkarlıq subyektlərinin yaranması üçün mikro sahibkarların sahibkarlıq fəaliyyəti ilə bağlı olan gəlirinin 75 faizi gəlir və mənfəət vergisindən azaddır. Bundan əlavə, mikro sahibkarlıq subyektləri sahibkarlıq fəaliyyətində istifadə etdikləri əsas vəsaitlərə münasibətdə amortizasiya ayırmalarını müəyyən olunmuş amortizasiya normalarına

2 əmsal tətbiq etməklə gəlirdən çıxmaq hüququna malik olmaqla yanaşı, həm də əmlak vergisini ödəməkdən azaddırlar. Bütün bu güzəştlərin və azadolmaların tətbiq olunması ölkədə sahibkarlığın inkişafına şərait yaratdı və bir çox yeni biznes qurumları yarandı (Azərbaycan Respublikasının Vergi Məcəlləsi).

Dövlət vergi azadolmalarını hər hansısa spesifik bir sahənin inkişaf etdirilməsi üçün də vasitə olaraq istifadə edir. Buna misal olaraq kənd təssərrüfatı istehsalçılarına verilən güzəştlərə nəzər sala bilərik. Belə ki, kənd təsərrüfatı məhsullarına olan tələbatın çox olması səbəbilə bu fəaliyyətlə məşğul olan istehsalçılara bir çox vergilərdən azadolma tətbiq edilir. (Azərbaycan Respublikasının Vergi Məcəlləsi).

Sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə yönəldilən tədbirlərdən bir digəri də sahibkarlara güzəştli kreditlərin verilməsidir. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına verilən bu kreditlər biznes fəaliyyəti ilə məşğul olanların investisiya layihələrinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuşdur (Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası, 2020).

## 1.2. Füzuli rayonu da daxil olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biznes sahələrinin inkişfı ilə bağlı görülən tədbirlər

Otuz ildən artıq dövrü əhatə edən işğal zamanı rayon və şəhərlərimiz, həmin ərazilərdəki yüzlərlə yaşayış məntəqələri, evlər, bir çox infrastruktur obyektləri tamamilə dağıdılmış və yararsız hala salınmışdır. Torpaqlarımızın işğaldan azad olunmasından sonra qarşıda duran əsas vəzifə bu ərazilərin yenidən bərpa olunması, burada müharibənin nəticələrinin aradan qaldırılması, və bölgənin yenidən ölkə iqtisadiyyatına reinteqrasiya edilməsidir. Bu səbəbdən də döyüş əməliyyatlarının başa çatmasından dərhal sonra işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan Ordusunun, Sərhəd Qoşunlarının, daxili işlər, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsinə, minatəmizləmə işlərinin aparılmasına, həmçinin su, elektrik enerjisi, qaz təchizatı, rabitənin yenidən qurulması və yol infrastrukturunun bərpası ilə bağlı işlərin icrasına başlanılmışdır. Bundan sonrakı illər ərzində də bu

tədbirlərin daha geniş miqyasda davam etdirilməsi nəzərdə tutulmuşdur. Torpaqların qaytarımasından sonra öz doğma yurdlarına geri dönən vətəndaşlarımızın burada yaşayışı və işgüzar fəaliyyəti üçün lazım olan şəraitin təşkil edilməsi ən vacib məqamlardandır. Həmin ərazilərdə iqtisadi fəaliyyətin bərpa olunması və ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu ərazilərin bərpa edilməsi, burada sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsindən 2.2 milyard məbləğində vəsait ayrılmışdır. Bundan əlavə olaraq bu məqsədlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır (https://science.gov.az/az/news/open/16136, 2021).

Bu planların həyata keçirilməsi və işğaldan azad edilmiş ərazilərdə görüləcək işlərə bağlı layihələrə dəstək verilməsi məqsədi ilə dövlət tərəfindən investisiya proqramı xətti ilə müvafiq vəsait ayrılması nəzərdə tutulmuşdur. Həmin ərazilərdə görüləcək işlərlə bağlı Strateji Fəaliyyət Planı üzrə vahid konsepsiya hazırlanması və bölgə ilə bağlı bütün tədbirlərin bu konsepsiya əsasında həyata keçirilməsi nəzərdə tutulmuşdur. Vahid konsepsiyanın hazırlanmasındakı əsas məqsəd burada görülən işlərin səmərəliyinin artırılması və mərkəzləşdirilmiş qaydada həll edilməsidir (https://report.az/qarabag/bas-nazir-isgaldan-azad-edilen-eraziler-vahid-konsepsiya-esasinda-berpa-edilecek/, 2021).

Həyat şəraiti qurulmasından başqa Qarabağda həyata keçirilməsi nəzərdə tutulan ən önəmli planlardan biri də burada yaşıl enerji zonasının yaradılmasıdır. Gələcəkdə Azərbaycanda neft və qaz ehtiyatlarının və hasilatın azalması diqqəti bərpa olunan enerji resurslarına yönəltməyə, bununla yanaşı, bu sahədə işlənib hazırlanmış və icrasına başlanmış müvafiq tədbirlər planını həyata keçirməyə gətirib çıxarır. Belə ki, ölkədə sosial-iqtisadi sabitliyə nail olmaq və ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün əsas məqamlardan biri də enerji resurslarının sabitliyi və səmərəliliyidir. Bu baxımdan, Azərbaycan öz mövcud və ya ənənəvi enerji resurslarından səmərəli istifadə etməklə yanaşı, bərpa olunan enerji resurslarının (RES) inkişafını da dəstəkləməlidir.

Bugün dekarbonlaşma və müxtəlif enerji mənbələrindən istifadə edilməsi məsələləri dünyanın bir çox ölkələrində olduğu kimi ölkəmiz üçün də gündəmdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də təmiz ətraf mühit və "yaşıl artıma" nail olunması da öz əksini tapmışdır. Bu prioritetlərə əsasən 2030-cu ilə qədər Azərbaycanda elektrik enerjisinin istehsal gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması nəzərdə tutulmuşdur. Ümumilikdə, ölkədə uzunmüddətli dövr üçün resurs gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətlərində işlərin görülməsi nəzərdə tutulmuşdur ("Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2021).

İşğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi bölgənin inkişafı üçün nəzərdə tutulmuş ən önəmli planlardandır. Burada alternativ enerji mənbələrinin kifayət qədər olması səbəbilə oranın "yaşıl enerji" zonasına çevrilməsi mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"na əsasən bu məqsəd üçün Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 1.391.040,0 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılması nəzərdə tutulmuşdur ("Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", 2021).

İşğaldan azad edilmiş ərazilərin müasir şəhərsalma konsepsiyası əsasında yenidən qurulması zamanı ən mütərəqqi innovasiyalar tətbiq ediləcəkdir. Belə ki, qabaqcıl beynəlxalq təcrübələri də nəzərə alınaraq ərazinin şəhər və kəndləri "smart-city" ("ağıllı şəhər"), "smart-village" ("ağıllı kənd") konsepsiyası əsasında yenidən qurulacaqdır. Bundan əlavə olaraq Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCO şirkəti arasında da ölkənin işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması haqqında saziş imzalanıb. Layihəyə əsasən,

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində külək, günəş, hidro, geotermal, bioenerji kimi bərpa olunan enerji potensialından səmərəli istifadə etmək üçün müasir enerji idarəetmə yanaşmalarına əsaslanan enerjiyə qənaət edən texnologiyaların hazırlanması nəzərdə tutulur. Layihə həmçinin beynəlxalq təcrübənin, regional enerji tələbatının və enerji təchizatının tədqiqini, eləcə də bərpa olunan enerji resurslarının şəbəkə inteqrasiyasını nəzərdə tutur (Hajiyeva N., Karimli A., 2021).

Bölgənin bu konsepsiya əsasında yenidən qurulması həmin bölgədə turizm sahəsinin inkişaf etdirilməsində önəmli rol oynayacaqdır. Bu məqsədlər üçün dövlət büdcəsindən ayrılacaq vəsaitdən başqa, həm yerli şirkətlərin rolunun artırılması, həm də xarici investorların bu işlərə cəlb edilməsi də bu işə müsbət təsir göstərəcək vacib faktorlardır.

Azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında yenidən qurulması və ölkə iqtisadiyyatına reinteqrasiyası nəticəsində ölkənin iqtisadi potensialı genişləyəcək və bu iqtisadi artıma səbəb olacaqdır. Qarabağın bərpası prosesi sadəcə həmin ərazilərə deyil, ümumilikdə ölkə iqtisadiyyatına təsir göstərəcək və nəticədə bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa olunan enerji resurslarının (RES) iqtisadi imkanları çox genişdir. Ermənistan 30 illik işğalı zamanı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında enerji və digər təbii sərvətləri qeyri-qanuni istismar edib. İşğaldan sonrakı dövrdə ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasına yüksək üstünlük verilməsi təəccüblü deyil. Ənənəvi enerji mənbələri hazırda dünyada ən çox yayılmış elektrik enerjisi istehsalı mənbəyidir. Bu baxımdan, dünyanın daim artan enerji tələbatı milli dövlətlərin yaşıl enerjiyə tədricən keçidini sürətləndirir. Bir çox ölkələrdə, o cümlədən ABŞ-da bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı artır. İşğaldan azad edilmiş ərazilərimizdə dövlət bərpa olunan enerji resurslarının istehsalına və səmərəli istifadəsinə diqqət yetirir. Nəticə etibarı ilə, bərpa olunan və ənənəvi enerji resurslarının tədricən istifadəsində harmoniyanın təmin edilməsi ölkənin sosial-

iqtisadi inkişafı, ekoloji dayanıqlılıq və enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir (Hajiyeva N., Karimli A., 2021).

Bərpa olunan enerji potensialının mövcudluğu yaşıl enerji zonalarının həlledici elementidir. Qarabağ və onun ətrafı günəş və külək enerjisi ilə zəngindir. Ərazilərdə 4000 meqavatdan çox günəş enerjisi potensialının və təxminən 500 meqavat külək enerjisi potensialının mövcud olduğu təxmin edilir. Burada kiçik su elektrik stansiyalarının inventarına da başlanılıb. İlkin məlumatlara görə, işğal zamanı 20-yə yaxın belə stansiya yararsız hala düşüb. Bundan əlavə, su elektrik stansiyalarının tikintisi ilə paralel olaraq, azad edilmiş bütün digər torpaqlarda bərpa olunan enerji mənbələrinin və sahələrinin müəyyən edilməsi prosesinə başlamaq üçün artıq dəqiq tədbirlər görülür. Nəticədə işğaldan azad edilən torpaqlar yaxın gələcəkdə "yaşıl enerji" zonası kimi təyin olunacaq. Külək enerjisi Kəlbəcər və Laçın rayonlarında, günəş enerjisi isə Zəngilan və Cəbrayılda geniş potensiala malikdir. Qarabağın dağlıq bölgəsində küləyin orta illik sürəti 100 metr yüksəklikdə saniyədə 7-8 metr olan geniş ərazilər var. Ermənistanla həmsərhəd olan Kəlbəcər və Laçın rayonlarında küləyin orta illik sürəti saniyədə 10 metri keçir. Qarabağ düzünün cənub hissəsi-Füzuli, Cəbrayıl və Zəngilan rayonları yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Naxçıvan MR ərazisindən sonra ikinci yeri tutur. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovatsaat təşkil edir (Hajiyeva N., Karimli A., 2021).

Bundan başqa, Qarabağ Azərbaycanın yerli su ehtiyatlarının 25%-ni təşkil edir, Tərtər, Bazarçay, Həkəri çaylarından və onların dərələrindən elektrik enerjisi istehsalı üçün istifadə edilməsi nəzərdən keçirilir. Bununla yanaşı, Kəlbəcər rayonunda 3093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su ehtiyatı var. Həmin ərazilər azad edildikdən sonra istilik mənbələrindən enerji üçün istifadə imkanları da araşdırılır. Qarabağ bölgəsində də kömür ehtiyatları var. Belə ki, Tərtər rayonunun Çardağlı kəndi 8,5 milyon ton kömür ehtiyatına malikdir (Hajiyeva N., Karimli A., 2021).

Bir sözlə, Azərbaycan "yaşıl" iqtisadiyyata keçidlə bağlı qlobal tendensiyanı tez tutmağa çalışır. Ölkənin dövlət gəlirləri üçün neft amilindən asılılığının davamlı

olmasına baxmayaraq, ölkə gələcək iqtisadi və enerji siyasətini "yaşıl" istiqamətə yönəldir. Buna görə də, enerji təhlükəsizliyinin yaxşılaşdırılması, qeyri-mərkəzləşdirilmiş elektrik şəbəkələrinin inkişafı, elektrik enerjisinin kəsilməsinin payının azaldılması və enerji mənbələrinin şaxələndirilməsi Azərbaycan sakinlərinin və bu ərazilərdəki ucqar yerlərin enerjiyə çıxışını təmin edir.

Sahibkarlıq fəaliyyətinə təşviq etmək məqsədi daşıyan və sahibkarların dəstəklənməsinə yönələn sənaye parkları Qarabağ bölgəsi üçün də diqqət mərkəzində olan bir məsələdir. İşğaldan sonrakı dövr üçün azad edilmiş ərazilərin potensialı nəzərə alındıqda Ağdam şəhərində sənaye mərkəzi yaradılması nəzərdə tutulmuşdur. Bu səbəbdən Azərbaycan ərazisində İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən yaradılacaq beşinci Sənaye Parkının təməlləri Ağdam şəhərində qoyuldu. İşğaldan əvvəlki dövrdə də sənaye istehsalı üçün istifadə edilən ərazidə tikiləcək olan bu park Ağdam ətrafında 190 hektar ərazini əhatə edəcək və əsas avtomagistral və dəmir yolu kommunikasiyalarının kəsişməsində yerləşəcək. Ağdam Sənaye Parkının yaradılmasında bundan əvvəl Azərbaycanda yaradılmış dörd parkın uğurlu təcrübəsi ilə yanaşı beynəlxalq təcrübə də nəzərə alınacaq (https://oxu.az/economy/519675, 2021).

Burada fəaliyyət göstərəcək rezidentlərə torpaq sahəsi, nəqliyyat və kommunal xidmətlər dövlət tərəfindən təmin ediləcək. Dövlət burada biznes layihələrinə təşviqi artırmaq məqsədilə digər sənaye parklarında olduğu kimi bu parkın rezidentlərinə də əlavə güzəştlər verir. Bu güzəştlərə aşağı icarə haqqının tətbiq olunması, fəaliyyətə başladıqdan sonrakı 10 il müddətinə gəlir və əmlak vergisindən, həmçinin istehsal məqsədləri üçün idxal olunan avadanlıq və texnologiyaya görə müvafiq olaraq on və yeddi il müddətində ƏDV və idxal rüsumlarından azad edilmə aiddir (https://oxu.az/economy/519675, 2021).

Sənayeləşmə prosesindəki ilk mərhələnin şəhərin və ona bitişik qəsəbələrin abadlaşdırılması olduğunu nəzərə alaraq, tikinti materialları istehsal edən şirkətlər parkın ilk rezidentləri olacaqlar. Əlavə olaraq, 5 hektar sahə tikinti materiallarının ticarətinin təşkili üçün ayrılacaqdır. Planlanan ikinci mərhələ qida və emal sənayesidir. İnsanların işğaldan azad edilmiş ərazilərə qayıtması prosesindən sonra

burada kənd təsərrüfatının inkişafı üçün imkanlar yaradılacaq. Sovet dövründə də bu bölgədə üzümçülük, meyvəçilik, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq və digər kənd təsərrüfatı sahələri inkişaf etmişdir. Bunu nəzərə alaraq xammal bazasının mövcud olması halında burada şərabçılıq, meyvə-tərəvəz konservləşdirilməsi və emal sənayesinin digər sahələrin inkişaf etdirilməsi asanlıqla mümkün olacaq. Bitkilərin becərildikdən sonra emalı və hazır məhsulun hazırlanmasına qədərki bütün mərhələlər daxil olmaqla, "sahədən piştaxtaya" prinsipi üzrə tam istehsal dövrünün təmin edilə bilməsi üçün sənaye parkında məhsulların saxlanması və qablaşdırılması məqsədilə sahələr ayrılacaq. Bu sayədə nəqliyyat xərcləri azalacaq və əldə olunan məhsulun rentabelliyini artacaq. Parkın ərazisində yük maşınlarının parklanması üçün də sahə ayrılacaq (https://oxu.az/economy/519675, 2021).

Artıq Azərbaycanın iş adamları tərəfindən Ağdam sənaye parkında fəaliyyət göstərmək üçün agentlyə müraciətlər olunmağa başlanılıb. Parkın rezidenti olmaq istəyənlərin bir çoxu tikinti materialları istehsal edən şirkətlərdir. Bu şirkətlərin niyyəti burada beton zavodu yaratmaq, mülki tikinti sahəsində gələcək istifadə üçün metal konstruksiyaların istehsalını, yığımını və ya mebel istehsalını təşkil etməkdir.

Verilən məlumata görə, işğaldan azad edilmiş bölgələrdə sahibkarlıq fəaliyyəti həyata keçirmək məqsədilə bağlı avqustun əvvəlinə 676 müraciət daxil olub. Daxil olan müraciətlərə əsasən investisiya layihələrinin prioriteti təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və məlumat bazasına daxil edilir (https://oxu.az/economy/519675, 2021).

Bu tipli sənaye parkları dövlət və özəl sektor arasındakı əməkdaşlığın uğurlu modelidir. Dövlət tərəfindən Ağdam Sənaye Parkının infrastrukturuna qoyulmuş investisiyalar həmçinin burada özəl investisiyalar üçün də zəmin yaradacaq.

Qarabağın inkişafında önəmli rol oynayacaq layihələrdən biri də Füzuli rayonunda açılan hava limanıdır. Bu hava limanının inşasının əsas məqsədi ilk növbədə azad edilmiş ərazilər istiqamətində sərnişin daşımalarının artırılmasına yönəlib. Füzulidə yeni hava limanının açılışından sonra bu istiqamətdə sərnişin daşımalarını artırmaq mümkün olacaq. Belə ki, bu hava limanı ilə nəinki Füzuli rayonunda həmçinin ətraf rayonlardada turizmin inkişafına şərait yaradacaq. Digər

önəmli məsələ isə bu hava limanı vasitəsilə həyata keçiriləcək yük daşımalarıdır (https://azvision.az/news/244180/-muhum-layihe--fuzuli-neqliyyat-qovsagina-cevrilir-.html, 2021).

Qarabağa hava qapısı olacaq Füzuli hava limanı beynəlxalq hava limanları münasibətində irələ sürülən bütün yüksək tələblərə uyğun şəkildə inşa edilmişdir. Burada istismara verilən uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Beynəlxalq mülki aviasiya təşkilatının (İCAO) bütün tələblərinə uyğun olan bu zolaq uçuşların təhlükəsizliyi məqsədi ilə instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikincil radiolakasiya sistemləri ilə tam təchiz olunmuşdur. Bu, müxtəlif tip təyyarələrin hava limanına qəbul edilməsinə şərait yaradacaq. Bakı Füzuli marşrutu üzrə hərəkət edəcək olan sərnişin təyyarələri üçün təxmini uçuş müddəti 35 dəqiqə təşkil etmişdir. Burada sərnişin terminalının qarşısında inşa edilmiş dayanacaq 150 avtomobil üçün nəzərdə tutulmuşdur. Hava limanından "Zəfər Yolu" və  Şuşa şəhərinə aparan magistral yola birləşən yol çəkilməsi planlaşdırılır (https://www.azal.az/az/article/643, 2021).

Füzuli yaxınlığındakı ərazilər, Azərbaycanın mədəni paytaxtı olan Şuşa şəhəri, Xocavənd rayonunun bir hissəsi, Hadrut və xüsusilə də Füzuli rayonunda yerləşən Azıx mağarası, turizm sektoru üçün çox vacibdir. Turistlər Füzuli şəhərinə nisbətən yaxın olan Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarını tezliklə inşa ediləcək müasir yollar sistemi vasitəsilə ziyarət edə biləcəklər. Yol infrastrukturu qurulduqdan sonra bölgəyə sərnişin axını artacaq ki, bu da bu rayonların turizm potensialının inkişafına müsbət təsir göstərəcək. Füzulidəki beynəlxalq hava limanı digər ölkələrdən olan vətəndaşları qəbul edəcək. Bu, çox vacibdir. Işğaldan azad edilmiş rayonların tarixi, təbii gözəlliyi ilə maraqlanan insanlar bu marşrutdan Bakıdan yan keçərək istifadə edə biləcəklər.

Turizm sektoru Azərbaycanın regionlarının iqtisadi inkişafının prioritet istiqamətlərindən birinə çevrilmişdir və burada inkişaf üçün böyük imkanlar vardır. Azərbaycanın digər bölgələri kimi Qarabağ bölgəsi də böyük turizm potensialına malikdir. Bölgədə turizmin müxtəlif növlərinin-ekoturizm, dağ turizmi, müalicə

turizmi, ov turizminin yenidən qurulması və inkişafı üçün böyük imkanlar mövcuddur.

# II FƏSİL. FÜZULİ RAYONUNDA BİZNES VƏ İNVESTİSİYA MÜHİTİNİN YAXŞILAŞDIRILMASI İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Füzuli rayonunun iqtisadi əhəmiyyəti və işğaldan əvvəlki dövrdə iqtisadiyyatımızdakı rolunun qiymətləndirilməsi

İşğaldan öncəki dövrə nəzər salsaq görərik ki, həmin dövrdə də Qarabağ bölgəsi Azərbaycan iqtisadiyyatında çox önəmli rola malik olub. Belə ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20%-nin itirilməsi nəticədə ölkə istehsal potensialının 1/5 hissəsini, 300.000 iş yerini itirdi. İşğala qədərki dövrdə bu torpaqlarda 87 qəsəbə, 7 inzibati rayon, 11 şəhər, 1,3 milyon hektar əkin sahəsi 600 min iri və xırdabuynuzlu mal-qara, 7000 kənd təsərrüfatı təşkilatı, 850 təhsil müəssisəsi, 650 səhiyyə ocağı, o cümlədən 120 min yaşayış yeri var idi. Bundan əlavə, regionda 160 körpü, 2300 km suvarma kanalı, 1500 km elektrik xətti, 2500 transformator, 23000 km su kanalı, 2000 km qaz kəməri, 20 km kanalizasiya xətti, 160 su çəni, 34 km qazpaylayıcı sistem, rabitə stansiyaları, 4 hava limanı, Bakı-Ağdam və Bakı-Naxçıvan-İrəvan dəmir yolları var idi. Həmin ərazilərində yeyinti sənayesi, maşınqayırma-sənaye, elektrik sənayesi kimi 180-dən çox sənaye təşkilatı fəaliyyət göstərirdi. Bu təşkilatlarda 18000-dən çox işçi çalışırdı (Aras O.N., Suleymanov E., və Mammadov K., 2016).

Rayonun iqlimi və torpaq ehtiyatları əkinçilik üçün əlverişli idi. Buna görə də Qarabağ bölgəsində 320 kolxoz, 90-dan çox sovxoz mövcud idi. Bölgədə müxtəlif növ bitkilər becərilirdi. Buğda istehsalının 24 faizi, üzüm istehsalının 41 faizi, kartof istehsalının 46 faizi, ət istehsalının 18 faizi, gündəlik heyvandarlıq məhsullarının isə 34 faizi bu regionun payına düşürdü. Bundan əlavə, əkin üçün yararlı olan 649 min hektar torpaq sahəsi var idi (Aras O.N., Suleymanov E., və Mammadov K., 2016).

Uzun müddət işğal altında qalmış torpaqlar dəmir, civə, xrom, mərmər, əhəngdaşı, qızıl, mineral sularla zəngindir. İşğal dövründə Azərbaycan bu bölgədəki 3 qızıl mədənində 39,6 min ton qızıl ehtiyatından məhrum olmuşdur (Aras O.N., Suleymanov E., və Mammadov K., 2016).

İşğaldan əvvəl Azərbaycan ərazisindən Avropadan Asiyaya və əksinə külli miqdarda yük daşınırdı. Bir ay ərzində Azərbaycan ərazisindən 300-ə yaxın vaqon keçirdi. Təbii ki, Azərbaycan işğaldan sonra tranzit gəlirlərindən də məhrum olub (Aras O.N., Suleymanov E., və Mammadov K., 2016).

Həmin dövrdəki bölgüsünə görə Yuxarı Qarabağ regionuna aid olan Füzuli rayonu da işğaldan əvvəlki dövrdə iqtisadi sahələrin inkişafına görə Azərbaycanın digər bölgələrindən geridə qalmırdı.

Füzuli rayonun əsası 1827 ci ildə qoyulmuş və 1830-cu ildə inzibati rayon statusu almışdır. 1993-cü ilin avqust ayında Füzuli rayonu Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. Lakin 1994-cü ilin dekabrında ordumuzun həyata keçirdiyi Horadiz əməliyyatının nəticəsi olaraq rayonun bir hissəsi, 21 kənd və strateji əhəmiyyətə malik Horadiz qəsəbəsi işğaldan azad edildi. 17 oktyabr 2020-ci ildə isə rayon tamamilə işğaldan azad edildi. Füzuli rayonu Kiçik Qafqaz dağ silsiləsinin cənub şərqindən başlayaraq Araz çayına qədər 1.39 min $km^2$ olan ərazini əhatə edir. Ərazisi maili düzənlik və alçaq dağlıq sahələrdə yerləşir. Cənub tərəfdən İranla həmsərhəd olan rayonun ərazisindən Araz çayının hövzəsinə aid olan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları keçir (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

1994-cü il əməliyyatından sonra əhalinin bir hissəsi işğaldan azad olunmuş doğma torpaqlarına qayıtmışdır. 1995–1997-ci illər ərzində 40.000 dinc sakin buraya qayıdaraq öz normal həyatlarını bərpa ediblər. 2020-ci il yanvar ayının 1-nə aid məlumatda bu ərazidəki əhali sayının 133.8 min olduğu göstərilmişdir. Həmin ərazilərdə ötən müddət ərzində müəssəsələr və binalar bərpa olunmuş və ya yenidən tikilmişdir. Hal-hazırda isə rayonda Füzuli və Horadiz şəhərləri, yeni salınmış 1-11№-li Qayıdış qəsəbələri və 82 kənd vardır (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

Füzuli rayonu 1970-ci ildən başlayaraq inkişaf etmiş, sənaye və müasir kənd təsərrufatı rayonuna çevrilmişdir. Bu rayon kənd təsərrüfatının inkifafı üçün olduqca əlverişli şəraitə malikdir. Belə ki, burada boz, şabalıdı, boz–qəhvəyi torpaq sahələri mövcud olmuşdur. Bu cür kənd təsərrüfatına yararlı torpaqların mövcudluğu bütün dövrlərdə kənd təsərrüfatının rayon iqtisadiyyatında önəmli yerdə olmasına gətirib çıxarır. İşğala qədər olan dövrdə taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq buradakı əhalinin əsas məşğuliyyət sahələri olmuşdur. Buradakı torpaqların 85 min hektarı kənd təsərrüfatına yararlı torpaqlar idi. Bundan

başqa 50.9 min hektar otlaq sahələri də mövcud idi. Rayonda 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı, 11 üzüm emalı müəssisəsi və s. vardı. Rayon ərazisindən axan çayların bol olması burada əkinçiliyin inkişafı üçün şərait yaratmışdır. Köndələn çayı üzərində tikilmiş Köndələn su anbarından suvarma kanalları çəkilmişdir. Füzuli rayonunun 24 min hektarı əhatə edən torpaq sahəsi suvarılırdı. 1980-ci ilədək rayonun iqtisadiyyatında əsasən pambıqçılığa yer verilmişdi lakin daha sonralar rayonun təsərrüfatları daha çox üzümçülük üzrə ixtisaslaşmışdı və burada 17,4 min hektarlıq əzazidə üzüm bağları salınmışdı. Heyvandarlığa nəzər saldıqda isə burada işğaldan əvvəl 17.6 min baş qaramal, 70 min baş qoyun və keçi saxlanılırdı (https://www.virtualkarabakh.az/az/post-item/27/110/fuzuli.html, 2021).

Rayonun 1994-cü ildə Horadiz əməliyyatı vasitəsilə azad olmuş hissəsində bundan sonra da kənd təsərrüfatı inkişaf edirdi. Dövlət siyasəti və kənd təsərrüfatı ilə əlaqəli qanunlar da bu sahənin inkişafında əhəmiyyətli rol oynayır. Belə ki, 1997-ci ildən etibarən Füzuli rayonun işğaldan azad olunmuş ərazilərində təsərrüfatda islahatı aparılmışdır, 5437 ailəyə 8804 ha torpaq sahəsi paylanmışdır. Bu islahata əsasən orta hesabla hər bir ailəyə 0.40 ha torpaq sahəsi düşürdü. Füzuli rayonu ilə bağlı 2011-ci ilə aid məlumatları gözdən keçirsək görərik ki, burada istehsal olunan bütün növ kənd təsərrüfatı məhsulları əvvəlki ilə nəzərən xeyli artmışdır. 2011-ci ilin yanvar-dekabr ayları ərzində 65730 ton taxıl, 1221 ton arpa, 638 ton pambıq, 30516 ton şəkər çuğunduru, 1608 ton kartof, 175 ton üzüm, 1010 ton meyvə, 5750 ton tərəvəz, 4652 ton bostan məhsulları istehsal edilmişdir (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

Həmin ildə ət istehsalı diri çəkidə 2027 ton, süd istehsalı 9611 ton, yumurta istehsalı 5911 min ədəd və yun istehsalı 151 ton təşkil etmişdir. 2010-cu illə müqayisə etsək ət istehsalı 114 faiz, süd istehsalı 124.8 faiz, yumurta istehsalı 129 faiz, yun istehsalı 102.7 faiz artmışdır. Füzuli rayon təsərrüfatlarında 2012-ci ildə isə rayonda 30831 baş iri buynuzlu mal-qara, o cümlədən 14823 baş inək camış, 109189 baş qoyun və keçi var idi. Əvvəlki illə müqayisə etdikdə iri buynuzlu mal-qara sayının 1.8 faiz, onlardan inək və camışların sayı 0.1 faiz, qoyun və keçilərin

sayı 0.7 faiz artdığını müşahidə edə bilərik (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

2011-ci ildə Füzuli rayonunda ümumilikdə 88.1 milyon manatlıq məhsul və xidmətlər istehsal edilmişdir. Bunun 50 faizi kənd təsərrüfatı sahələri, 25 faizini sənaye sahələri 25 faizi xidmət sahəsini əhatə edir.

Kənd təsərrüfatından başqa, rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi. Füzuli rayonunda sənaye sahələrini əsasən tikiş, qida məhsullarının istehsalı, elektrik enerjisi, qaz və suyun bölüşdürülməsi kimi sahələr əhatə edir (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

2012-ci ilin əvvəlinə aid məlumata görə rayonda fəaliyyət göstərən 7 sənaye müəssisəsi var idi. 2011-ci ildə sənaye müəssisələrində istehsal edilən məhsul və göstərilən xidmətlərin faktiki qiymətlərlə dəyəri 2.4 milyon manat idi. Bu zaman qeyri dövlət müəssisələrinin sənayesinin ümumi məhsulundakı xüsusi çəkisi 0.3 faiz olmuşdu. 2012-ci ilin əvvəlinə olan vəziyyətinə əsasən sənaye müəssisələrində 339 muzdlu işçi çalışırdı. Həmin işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilə nəzərən 13.2 faiz artaraq 142 manat olmuşdur (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

2011-ci ildə rayon ərazisində 35 ədəd kiçik ticarət müəssisəsi fəaliyyət göstərərdi. Bundan əlavə 160 fiziki şəxs hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olurdu. (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019)

İctimai iaşə dövriyyəsi də daxil olmaqla 2011-ci ildə rayonun pərakəndə əmtəə dövriyyəsinin həcmi ötən illə müqayisədə 12 faiz artaraq 12596.9 min manat olmuşdur. Bu dövriyyənin 35 faizi hüquqi şəxslərin, 65 faizi isə hüquqi şəxs yaratmadan bazar və ya çadır tipli yerlərdə fəaliyyət göstərən fiziki şəxslərin payına düşür. 2011-ci ildə Füzuli rayonunda əhaliyə 5714.4 min manatlıq xidmətlər göstərilmişdir. Bu göstərici əvvəlki ilə nisbətən 14 faiz daha çoxdur. Həmin pullu xidmətlərin 1.9 milyon manatlıq hissəsi hüquqi şəxslər tərəfindən əhaliyə göstərilən xidmətlərə aiddir. Orta hesabla rayonda adambaşına 220 manatlıq istehlak malları

alınmışdır, bu 2010-cu ildə alınan mallara nəzərən 30 faiz daha çoxdur (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

Əhalinin məşğulluq dərəcəsi də rayonun iqtisadi sahələrinin inkişaf səviyyəsinin əsas göstəricilərindəndir. Belə ki, Füzuli rayonunda məşğul əhalinin sayı 2010-cu ildə 73254 nəfər olmuşdur. 2011-ci ilin məlumatlarında isə həmin ilki göstərici 73610 nəfərdir. Rayonun müəssisə, idarə və təşkilatlarında fəaliyyət göstərən muzdlu işçilərin siyahısındakı saylara əsasən burada 2010-cu ildə 15287 nəfər və 2011-ci ildə isə 15378 nəfər işləyirdi. Məşğulluq xidməti orqanları tərəfindən müəyyənləşdirilən rəsmi işsizlərin sayı 2012-ci ilin əvvəlində rayon üzrə 766 nəfər idi. Həmin vaxtda 26 nəfər işsizlik müavinəti ilə təmin olunmuşdur. Əhalinin həyat səviyyəsinin yüksəlməsini göstərən əsas faktorlardan biri olan orta aylıq nominal əmək haqqı 2010-cu ildə 196,9 manat, 2011-ci ildə isə 210,4 manat olmuşdur. Orta aylıq nominal əmək haqqının yüksəlməsi əsasən iqtisadiyyatın təhsil, elektrik enerjisi, qaz və ya suyun istehsalı və bölüşdürülməsi, maliyyə fəaliyyəti, tikinti, dövlət idarəeetməsi və müdafiə sahələrində açıq bir şəkildə müşahidə olunmuşdur. Yeni iş yerlərinin açılması da Füzuli rayonunda biznes subyektlərinin inkişafını göstərir. Belə ki,  Füzuli rayonunda 490-ı daimi iş yeri olmaqla 2011-ci ildə rayon ərazisində 1575 yeni iş yeri açılmışdır. İl ərzində rayonda daimi xidmət göstərmək üçün açılmış iş yerlərinin 32,3 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, qalan 67,7 faizi isə fərdi sahibkarlar tərəfindən yaradılmışdır (https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/, 2019).

1989-1993-cü illərdə Ermənistan Azərbaycana məxsus olan indiki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına aid olan əraziləri işğal etdi. İşğalın başlanğıcından bu günə qədər həyata keçirilən talançılıq və səmərəsiz istismar bölgənin infrastrukturunu sıfıra endirdi, biznes mühitinə və iqtisadiyyata ciddi zərbə vurdu.

Sovet dövründə Qarabağ və ətraf əraziləri Azərbaycanın digər iqtisadi bölgələri ilə sıx iqtisadi əlaqələrdə inkişaf etmişdir. Hər tərəfə keçən yollar iki sahə arasında sıx iqtisadi əlaqələr yaradırdı. Uzun bir müddət ərzində həmin ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın bölgələrindən gətirilən yanacaq,

xammal və materiallar əsasında fəaliyyət göstərirdi və çoxu Bakıdakı iri müəssisələrin filialları kimi çalışırdılar. Bölgənin ermənilər tərəfindən işğalı və Azərbaycanın digər bölgələrindən ayrılması bölgənin əhalisi və iqtisadiyyatı üçün çox ciddi problemlər yaratdı.

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini elan etməsi Azərbaycanın iqtisadi prosesində çox önəmli rol oynayır. Müstəqilliyin qorunmasının əsas məqsəd olduğu bu dövrdə iqtisadiyyatda çətin vəziyyət yarandı.

Belə ki, müstəqillik əldə etdikdən sonrarakı 1991-1994-cü illər bir çox problemlərlə üzləşdiyi, sosial-siyasi problemlərin böhrana çevrildiyi, müharibənin getdiyi bir dövr idi. Həmçinin SSRİ-nin dağılmasından sonra keçmiş ittifaq dövlətləri ilə iqtisadi əlaqələrə zərbə dəyməsi və Çeçenistan problemi nəticəsində ticarət yollarının bağlanması da iqtisadiyyatın zəifləməsinə gətirib çıxarırdı. İqtisadiyyatda ən pis ssenari 1992-ci ildə baş verdi. 1992-1994-cü illərdə ÜDM əvvəlki dövrə nisbətən iki dəfədən çox azaldı və 1991-ci ildəki ÜDM-in 48 faizinə bərabər oldu. Ümumiyyətlə 1990-1994-cü illərdə ÜDM-un dəyişiminə nəzər salsaq görərik ki, burada hər il orta hesabla 13-20 faiz azalma baş verib. Azərbaycanın ÜDM-u 1994-cü ildə 1629,3 milyon dollar olmuşdur. 1990-cı illə müqayisə etdikdə 1994-cü ildə ÜDM-un 53 faiz, sənayenin 62 faiz, kənd təsərrüfatının 44 faiz, istehlakın 75 faiz və vergi istehsalının 45 faiz azaldığını müşahidə edərik. Bu azalmanın nəticəsi olaraq həmin dövrdə əhalinin həyat səviyyəsi 3,6 dəfə, real orta əmək haqqı isə 80 faiz azalmışdır (Aras O.N., Suleymanov E., və Mammadov K., 2016).

## 2.2. Füzuli rayonunda mikro və kiçik sahibkarlıq subyektlərinin inkişafı imkanlarının qiymətləndirilməsi

İşğaldan azad olunmadan əvvəlki dövrdə Azərbaycanın iqtisadiyyatında önəmli bir yerə malik olan Füzuli rayonunun azad edilməsi ölkə üçün çox böyük iqtisadi önəm daşıyır. Bildiyimiz kimi Füzuli rayonunun bir hissəsi (Horadiz qəsəbəsi və 21 kənd) 1994-cü ildə işğaldan azad edilmişdir. Bu da Füzulini digər

işğal olunmuş ərazilərdən fərqləndirir. Belə ki, 1994-cü ildən sonra həmin ərazilərdə yaşayış yenidən qurulmuş, təsərrüfat işləri bərpa olunmuşdur. Bu da Füzuli rayonunda sonrakı müddət ərizində də müxtəlif sahələrin inkişafını təhlil etməyə imkan verir.

İşğaldan öncəki dövrlərdəki inkişafını qiymətləndirən zaman Füzuli rayonunun kənd təsərrüfatı üçün geniş potensialı olduğunu görə bilərik. İşğaldan əvvəlki dövrdə rayonun iqtisadiyyatının əsasını təşkil edən bu sahənin bundan sonrada inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Rayonun iqlimi və münbit torpaq örtüyü burada kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar yaradır. Araz, Köndələnçay, Quruçay, Şaparlı, və Qozluçay kimi çayların burada yerləşməsi və bu çaylar vasitəsilə torpaqların suvarılması əkinçiliyin inkişafına təsir edən əsas amillərdəndir. Xudafərin və Suqovuşan su anbarları azad edilən rayonda bütün kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi üçün yeni imkanlar yaradır. Suvarılma imkanlarının artırılması bu sahədən götürülən faydanın artmasına gətirib çıxaracaq. Suvarma mənbələrinin çoxalmasından əlavə olaraq həmin vaxtdan indiyə texnologiyanın inkişafı və müasir texnikaların tətbiqi imkaları da işğaldan əvvəlki dövrlə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalının daha da artmasına səbəb olacaq (https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721, 2021).

İşğaldan əvvəlki dövrlərdə rayonun əsas istehsal sahələrinin 2025-ci il üçün proqnozlaşdırılan inkişafı:

- Taxılçılıq-işğaldan öncəki illərdə ölkədəki ümumi taxıl istehsalının 2.3 faizi Füzuli rayonunun payına düşürdü. 2019-cu ilin statistikasına baxdıqda bu göstəricinin artaraq 3.3 faizə çatdığını görə bilərik. Bu zaman rayonun bir hissəsinin işğal altında olmasına baxmayaraq istehsalın artması bu sahənin daha da inkişaf edəcəyini göstərir. 2025-ci il üçün proqnozlaşdırılan taxıl istehsalı 130.4 min tondur.
- Pampıqçılıq-2019-cu ildə 1.6 ton olan pambıq istehsalının 2025-ci ilədək 5.5 tona çatdırılması planlaşdırılır ki, bu da ümumi ölkə istehsalının 1.4 faizi deməkdir.
- Üzümçülük-1980-ci illərin əvvəlində Füzuli rayonunda 76.7 min ton üzüm istehsal edilməsinə baxmayaraq, 2019-cu ildə bu rəqəm 960 tona qədər düşmüşdü.

Rayonun geri qalan hissəsinin də işğaldan azad olması sayəsində üzüm sahələri genişləndiriləcək. Beləliklə də ümumi istehsalın təqribən 10.5 min ton olması proqnozlaşdırılır. Üzümçülüyün inkişaf etdirilməsi həmçinin şərabçılıq sektorunun da canlanmasına gətirib çıxaracaq.

• Bitkiçilik-Aparılan təhlillərin nəticəsi göstərir ki, 2025-ci ildə Füzuli rayonunda ümumi sahəsi 47.4 min hektar oln əkin və bağ sahələrindən toplamda 208.2 min ton məhsul istehsal edilə bilər. Bu ölkə ərazisində istehsal olunan bitkiçilik məhsullarının 2.1 faizini təşkil edir.

• Heyvandarlıq-2025-ci ilədək rayonunda 56.3 min baş iribuynuzlu və 260.4 min baş xırdabuynuzlu heyvandarlığın bərpa edilməsi gözlənilir. Həmin zamana qədər quşların sayının 470,9 min baş və arı ailələrinin sayının 4 min olması planlaşdırılır. Bununla da rayonun ölkədəki ət istehsalındakı payının 0.6 faiz, yun istehsalındakı payının 2.4 faiz, süd istehsalındakı payının 1.2 faiz və yumurta istehsalındakı payının isə 1.6 faiz olması planlanır.

Bütün bu kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi nəticəsində 2025-ci ildə Füzuli rayonunda istehsal edilən malların proqnozlaşdırılan ümumi dəyəri 147.8 milyon manat olacaq (https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721, 2021).

Kənd təsərrüfatının inkişaf etdirilməsi həm daxili istehlakı qarşılamağa, həm də xarici ticarətin inkişafına müsbət təsir göstərəcək.

Azərbaycan Prezidentinin 2021-ci ilin yanvarında Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam verməsi ilə həmin ay tikintisinə başlanan hava limanının 26 oktyabr 2021-ci ildə açılış mərasimi keçirilmişdir (https://azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limaninin_achilis_merasimi_olub_Prezidentler_Ilham_Aliyev_ve_Receb_Tayyib_Ardogan_achilis_merasiminde_istirak_edibler_YENILANIB_VIDEO-1908966, 2021).

Bu hava limanının əsas məqsədlərindən biri bölgədə turizm sektorunun inkişafını təmin etməkdir. Bu hava limanı nəinki Füzuli rayonu həm də Qarabağın digər rayonlarına gəlmək istəyən qonaqları qarşılayacaq. Xarici qonaqların Şuşa şəhərinə gəlişi Füzuli Beynəlxalq Hava Limanı vasitəsilə asanlaşacaq. Füzuli

aeroportu işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin cəlb olunması üçün olduqca faydalıdır. Belə ki, hazırda Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı sayılan Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Həmin turistlərin daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilmələri üçün Füzuli hava limanı daha əlverişli imkanlar yaradacaq. Bir sözlə, Füzuli Beynəlxalq Hava Limanı regionda turizmin canlanmasında olduqca önəmli rol oynayacaq (https://azvision.az/news/244180/-muhum-layihe--fuzuli-neqliyyat-qovsagina-cevrilir-.html, 2021).

Hava limanından "Zəfər Yolu" və Şuşa şəhərinə aparan magistral yola birləşən yollar çəkilməsi buradan regionun digər rayonlarına səyahət etmək istəyən turistlər üçün əlverişli şərait yaradır (https://www.azal.az/az/article/643, 2021).

Müasir dünyada turizm bütün əlaqəli infrastrukturun inkişafına birbaşa və dolayı yolla təsir göstərən sosial-iqtisadi hadisə kimi qəbul edilir. Müasir turizm nəqliyyat, sosial və xidmət sahələrinin yüksək inkişaf səviyyəsinə əsaslanır ki, bu da son nəticədə onu iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirir. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına görə, turizm bu gün dünya iqtisadiyyatının ən gəlirli və dinamik sektorlarından biridir. Gəlirliliyə görə neft hasilatı və emalından sonra ikinci yerdədir. Turizm dünyanın ümumi milli məhsulunun təxminən 6%-ni, qlobal investisiyanın 7%-ni, qlobal istehlak xərclərinin 11%-ni və bütün vergi gəlirlərinin 5%-ni təşkil edir. Bu baxımdan bir çox ölkələrdə turizm sektoru dövlət dəstəyi ilə fəal inkişaf edir (S.Gandilova, 2021).

Turizm sektoru Azərbaycan iqtisadiyyatında da önəmli rola malikdir. Belə ki, son illər turizmin inkişafı Azərbaycan regionlarının iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilir. Azərbaycanda onun həyata keçirilməsi üçün geniş imkanlar mövcuddur. Statistika komitsinin saytından götürülmüş məlumata əsasən hazırlanmış aşağıdakı qrafikdən görünür ki, 2005 ildən 2019-cu ilə qədərki dövrdə aparılan siyasətin nəticəsi olaraq turizm sektoru davamlı inkişaf etmişdir. 2020-ci ildə isə iqtisadiyyatın digər sahələri kimi, turizm sektoru da pandemiya böhranı nəticəsində tənəzzülə uğrayıb. Qeyd edək ki, turizm əhalinin yerdəyişməsi

və sərhədi keçməsi ilə əlaqəli olduğundan, pandemiyanın turizm sektoruna dağıdıcı təsiri daha güclüdür. Bu tənəzzül, ilk növbədə, ölkəmizə turist axınının əvvəlki illərlə müqayisədə xeyli azalmasında özünü göstərir.

**Cədvəl 3: 2006-2020-ci illərdə Azərbaycanda turizmin inkişafı**




**Mənbə:** Dövlət Statistika komitəsinin məlumatına əsasən müəllif tərəfindən tərtib edimişdir (https://www.stat.gov.az/source/tourism/az/002_3.xls).

Qarabağ bölgəsinin işğaldan azad edilməsi Azərbaycanda turizmin inkişafı üçün yeni imkanlar yaradır. Belə ki, Qarabağ bölgəsində turizmin inkişafı xarici turistlərin böyük marağına səbəb olacaq. Eyni zamanda, dövlət tərəfindən də işğaldan azad edilmiş ərazilərda turizmin inkişafına üstünlük verilir. Bu ərazilərin böyük turizm potensialı var və işğaldan azad edilmiş ərazilərdə itirilmiş infrastruktur kommunikasiyalarının bərpası ilə biznes üçün, o cümlədən turizmin inkişafı üçün əlverişli şəraitin formalaşması gözlənilir.

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olub. Bu rayon həm də zəngin turizm təcrübəsinə malikdir və uzun müddət həm keçmiş SSRİ əhalisinin, həm də xarici ölkələrin marağına səbəb olmuşdur. Əslində, Qarabağın turizm potensialı çox zəngindir. İşğaldan azad edilmiş ərazilərdə turizmin müxtəlif növlərini-ekoturizm, dağ turizmi, qış turizmi, müalicə (tibbi) turizmi, ov turizmini yenidən qurmaq və inkişaf etdirmək üçün böyük imkanlar var.

Çoxlu möhtəşəm mənzərələri, valehedici dağları, gölləri, düzənlikləri və dərələri, qədim tarixi və mədəni irsi ilə Qarabağ zəngin turizm potensialına malikdir. Gözəl bir təpədə yerləşən Şuşa şəhəri rayonun mədəniyyət paytaxtıdır. Şuşa

muğamın beşiyidir, xalçaçılıq və dünya şöhrətli Qarabağ atlarının yetişdirilməsi mərkəzidir-bütün bunlar YUNESKO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edilmişdir. Şuşa şəhərinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına salınması prosesinə artıq başlanılıb - Şuşa 2001-ci ildən ilkin siyahıya daxil edilib (S.Gandilova, 2021).

Azərbaycanlıların öz tarixi torpaqlarına qayıtması üçün Qarabağda bütün zəruri infrastrukturun həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlər sürətlə davam etdirilir. Təbii ki, işğaldan azad edilmiş ərazilərin tam bərpası vaxt aparacaq, çünki işğal 90-cı illərin əvvəllərindən davam edib və bu, bir çox mədəniyyət və tarixi abidələrin dağıdılmasına və ya zədələnməsinə səbəb olub. Bununla belə, müxtəlif turizm marşrutları və layihələri işləyib hazırlanması sayəsində gəzinti, açıq hava fəaliyyəti, mədəni və dini irs obyektlərinə, şərab zavodlarına, parklara və muzeylərə, eləcə də bir çox digər turizm istiqamətlərinə səfərlər tezliklə burada populyarlaşacaq (S.Gandilova, 2021).

Qarabağ Azərbaycana səfər edəcək olan turistlərin mütləq səfər etməli olduğu yerlərdəndir. Buradakı rayonların inanılmaz təbiəti yerli yaylada yerləşən dağlıq relyeflərin, göllərin, mağaraların, alp çəmənliklərinin, dərələrin və dərin kanyonların olması ilə bağlıdır. Azərbaycan həmişə füsunkar dağları ilə məşhur olub.

Dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən, flora və faunası, tarixi-mədəni və dini abidələri, bənzərsiz memarlığı ilə seçilən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa, termal təmizləyici suyu “İstisu” ilə seçilən Kəlbəcər və s. bu imkanların nə qədər geniş olduğunun göstərir. Kəlbəcər və Laçın rayonlarının, bütövlükdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının böyük turizm potensialı var. Bu potensialı reallaşdırmaq üçün mühüm işlər görülməlidir. Kəlbəcər rayonu əsasən dağlıq ərazilərdə yerləşir, ən yüksək zirvələri Camışdağ (3724 m) və Dəlidağdır (3616 m). Burada enliyarpaqlı meşələr (palıd, fıstıq, qarağac), yüksək dağlıq ərazilərdə meşə-çöl bitkiləri geniş yayılmışdır. Burada qazıntılar zamanı tarixi eramızdan əvvəl IV-III minillikləri əhatə edən müxtəlif ov və məişət alətləri tapılmışdır. Eyni zamanda, Kəlbəcər qədim türk mədəniyyətinin beşiyidir. Bu ərazidən Tunc dövrünə aid Kür-Araz mədəniyyəti nümunələri də aşkar edilmişdir.

Kəlbəcər rayonu termal su mənbələri ilə də zəngindir. Şimaldan Kəlbəcərlə həmsərhəd olan Laçın rayonunun ərazisində 3 mindən çox tarixi memarlıq abidəsi var. Onların arasında kurqanları, abidələri, qalaları, qəbir daşlarını, at fiqurlarını, qoçları, süjet daşlarını və s. sadalana bilər. Laçının ən yüksək zirvəsi Qızılboğaz dağıdır (3594 m). Rayon subalp və alp çəmənlikləri və meşələri ilə zəngin relyefə malikdir. Laçın və Kəlbəcər rayonları zəngin və qədim xalçaçılıq ənənəsinə malikdir. Laçının da zəngin su bulaqları, termal bulaqları var. Hər iki rayonun ərazisində alban mədəniyyəti abidələri mövcud olmuşdur. Bunları nəzərə alaraq, əminliklə demək olar ki, bu ərazilər geniş turizm potensialına malikdir. Bu ərazilər təbii və texnogen ehtiyatlarla zəngindir (S.Gandilova, 2021).

Turistlərin əksəriyyəti ziyarət zamanı atçılıq və yürüyüş, kürəklə gəzinti və maraqlı balıqçılıq kimi fəaliyyətlərlə məşğul ola bilərlər. Bundan əlavə, Qarabağda ekskursiya marşrutları üçün əla imkanlar var. Bura zəngin mədəni irsə malik qədim bölgədir. Turistlər tarixi, arxeoloji və memarlıq xarakteri kimi saysız-hesabsız görməli yerləri ziyarət edə biləcəklər.

Eyni zamanda, Qarabağda ekoturizm fəaliyyəti sürətlə inkişaf edəcək, çünki bu torpaqlar təbii sərvətlərlə zəngindir. Dağlıq ərazini nəzərə alaraq müxtəlif növ ekstremal turizm, aqroturizm, kənd və "yaşıl" turizm, gəzinti, göbələk turları, quş müşahidəsi (quş seyri) və digər sahələri inkişaf etdirmək olar. Ekstremal turizmin-rafting, qayayadırmanma, alpinizm və s. növlərinin inkişafı bölgə üçün əlverişlidir.

Yuxarıda göstərilənlərə istinad edərək deyə bilərik ki, yaxın gələcəkdə bu rayonların ərazisində ekoturizm, o cümlədən qayayadırmanma və alpinizm, yaşıl turizm, maarifləndirici turizm, arxeoloji tur, müalicə turizmi, rekreasiya kimi fəaliyyətlər inkişaf etdiriləcəkdir.

Qarabağın təbiəti və onun müalicəvi suları burada turizmin inkişafı üçün müstəsna şərait yaradır. Son illərin statistikasına nəzər salsaq görərik ki, istirahət məqsədilə xaricə gedənlərin sayı hər il ölkəyə daxil olanlardan daha çoxdur. 2019-cu ildə Azərbaycana turist qismində 2863,5 min nəfər, Azərbaycandan isə 4347,3 min nəfər xarici ölkələrə səyahət edib. Bunun əsas səbəblərindən biri turizm

sektorunda qiymətlərin yüksək olmasıdır (Aghayeva, K., Hatamova, T., & Sheydai, T.,2021).

Qarabağ bölgəsində turizm sektorunda müalicəvi turizmin inkişafı ölkədən hər il müalicə məqsədilə Rusiya və Ukraynaya axın edən əhalinin gətirilməsinə kömək edə bilər.

Dünya Səyahət və Turizm Şurasının (WTTC) məlumatına görə, Azərbaycan 2028-ci ildə MDB ölkələri arasında turizm sahəsindən olan illik gəlirlərini 6,2% artıran ilk ölkə olacaq. Bu, ölkənin yalnız turizm gəlirlərindən 18,2 milyard dollar qazanmasına səbəb olacaq. Ümumdünya Turizm və Səhiyyə Şurasının bu proqnozu özünü doğrultsa, turizm sektoru ÜDM-in 19,3 faizini, dövlət büdcəsinin isə 1\5 hissəsini təşkil edəcək. Pandemiya dövrünün itkilərinin, Qarabağ bölgəsinin turizm sektoruna açılması vasitəsilə eyni gəliri maksimum 2 il gecikdirməklə və hətta orta hesabla ondan 5% yüksək gəlir əldə etməyə imkan verərdi (Aghayeva, K., Hatamova, T., & Sheydai, T.,2021).

Füzuli beynəlxalq hava limanının inşa edilməsinin iqtisadiyyata mümkün təsirinin qiymətləndirilməsi üçün oxşar xüsusiyyətlərə məxsus İzmir Adnan Menderes Hava Limanının analoji hava limanı olaraq seçilmişdir.

İzmir Türkiyənin qabaqcıl ticarət və sənaye mərkəzlərindən biri olmaqla yanaşı, həm də turizm baxımından yerli və xüsusilə xarici turistlərin üstünlük verdiyi mərkəzlərdən biridir. İzmirin turizm əhəmiyyətinin xüsusilə son illərdə İzmir Limanına gəlməyə başlayan sərnişin gəmiləri ilə daha da ön plana çıxdığı görülür.

Dövlət Hava Limanları İdarəsi (DHMİ) Ümumi Müdirliyinin hər ilin sonunda açıqladığı məlumatlara görə, 2007-ci ildə Türkiyə daxilində 70 milyon 296 min 532 sərnişin hava nəqliyyatına üstünlük verdiyi halda, bu rəqəm 2008-ci ildə %13 artımla 79 milyon 438 min 289-a çatıb. İzmir Adnan Menderes Hava Limanının bu artımdakı payı 2007-ci ildə 5.236.304 sərnişin və 2008-ci ildə 5.455.298 sərnişinlə təxminən 7,5% təşkil edir. Sözügedən illər arasındakı dəyişiklik qiymətləndirildikdə, Adnan Menderes Hava Limanına gələn və gedən sərnişinlərin illik sayında 4,2% artım olduğu görülür. Gələn təyyarələrin ümumi sayı 2007-ci ildə 51.774 ədəd olduğu halda, 2008-ci ildə 0,5% artımla 52.014 ədədə çatıb. Bu

məlumatları nəzərə alsaq, İzmir Adnan Menderes Hava Limanının 741.765 təyyarənin enib qalxdığı Türkiyə hava limanlarında payı təxminən 7% təşkil edir (DHMİ, 2009). Bu, İzmirin təkcə dəniz nəqliyyatı baxımından deyil, həm də hava nəqliyyatı baxımından əhəmiyyətli bir mərkəz olduğunu göstərir (Tanyel, S., 2010).

Sentyabr ayının 5-ində Azərbaycanın «Silk Way» aviaşirkətinə məxsus olan yük təyyarələrindən biri, «Boeing 747-400» tipli hava gəmisi, də Füzuli hava limanına eniş etmişdi. Bu təyyarə vasitəsilə ilk dəfə olaraq hava yolu vasitəsilə işğaldan azad edilmiş bölgələrə yüklər gətirilib. Belə ki, bu hava limanı sadəcə olaraq turizm sektoru üçün yox həm də yükdaşımalar, xüsusi ilə də beynəlxalq yükdaşımalar üçün olduqca vacibdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yüksək sənaye potensialına malik olduğundan bölgədəki hava limanı həm də burada istehsal olunan sənaye məhsullarının ixracında əhəmiyyətli rol oynayacaq. Yükdaşıma Qarabağda kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üçün də önəmli amildir. Qarabağdakı meyvə məhsullarını xarici ölkələrə aparmaq üçün hava limanı birbaşa əlaqə deməkdir.

Füzuli rayonunda hava limanının inşa olunmasındakı ən vacib məqamlardan biri də onun Zəngəzur dəhlizinin əhəmiyyətini artırmasıdır. Zəngəzur dəhlizin vasitəsilə sadəcə Azərbaycanda deyil bütün regionda iqtisadi inkişaf böyük təmin olunacaq. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər bölgələrini birləşdirən bu dəhliz, həmin ərazinin Azərbaycan iqtisadiyyatına reinteqrasiya olunmasına müsbət təsir göstərəcək. Naxçıvanla quru yolunun açılması Azərbaycanın iqtisadi inkişafında çox ciddi rol oynayacaq. Bu dəhlizin açılması sadəcə Naxçıvan Muxtar Respublikası və Azərbaycanın digər bölgələri arasında yox, həmçinin Cənub-Şərqi Asiya və Mərkəzi Asiya ilə Avropa arasındakı nəqliyyat-logistika xətti olacaq. Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanının digər bölgələri Naxçıvanla yanaşı Türkiyə ilə də birləşir.

Naxçıvana quru dəhlizinin açılması mühüm tarixi nailiyyətdir. Ölkənin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında analoqu olmayan nəqliyyat əlaqəsi yaradılacaq. Beləliklə, Naxçıvan həm mühasirədən çıxarılır, həm də yeni nəqliyyat arteriyası yaranır (Mehmetshah, I. O. K.,2021).

# III FƏSİL. FÜZULİ RAYONUNDA BİZNES MÜHİTİNƏ MƏNFİ TƏSİRLƏRİN AZALDILMASI İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN İSLAHATLAR

## 3.1. Füzuli rayonunda biznes sahələrinin inkişafı üçün zəruri infrastrukturun inkişaf etdirilməsi

Qeyri-neft sektorunun inkişafının ölkə iqtisadiyyatı üçün əhəmiyyətindən danışıldı. 2020-ci ildə ərazilərimizin işğaldan azad olması biznes subyekləri və ölkənin iqtisadiyyatı üçün önəmli faktor oldu. Füzuli rayonu da daxil olmaqla işğaldan azad edilmiş bölgələrdə sosial və iqtisadi həyatın qısa müddət ərzində canlanması üçün burada biznes sahələri inkişaf etdirilməli və buraya sahibkarlar cəlb olunmalıdır. Bu səbəbdən bölgənin inkişaf etdirilməsində yerli investorların iştirakı önəmli rol oynayır. Dövlətin sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar və iş adamları

üçün yaratdığı imkanlar biznes mühitinin inkişafı üçün vacibdir. Sahibkarlar yaradılan bu imkanlardan istifadə edərək bölgədə yeni biznes sahələri qurmalı və bu yolla da regionun inkişafına öz töhfələrini verməlidirlər.

Azərbaycan Respublikası Sahibkarlığın inkişafı fondu tərəfindən iqtisadi rayonlar üzrə prioritet istiqamətlər hazırlamışdır. Buradakı önəmli məsələ vəsaitlərin səmərəli yolla istifadə edilməsidir. Füzuli rayonunun da daxil olduğu Qarabağ iqtisadi rayonunda inkişaf etdirilməsi planlanan əsas sahələr innovativ texnologiyalara əsaslanan istehsal, xidmət və emal sahələridir. Yeni emal fəaliyyəti ilə məşğul olan müəssisələrinin açılması və ya mövcud olan bu tipli müəssisələrin yenilənməsi və genişlənməsi bu bölgədə aqrar sektorun inkişafı üçün mümbit şərait olması ilə sıx əlaqəlidir (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, 2022).

Qarabağ iqtisadi rayonu ilə bağlı diqqət mərkəzində olan digər bir məsələ isə aqroparklar və fermer təsərrüfatlarıdır. Buna misal olaraq Ağcabədi taxıl aqroparkını göstərə bilərik. Sahibkarlığın və biznes sahələrinin dəstəklənməsi məqsədilə 9,8 milyon manat güzəştli kredit ayrılıb. Bunun nəticəsi olaraq burada yeni 150 iş yeri yaradılıb və bunlardan 41-i daimi iş yerləridir (Heydərov P., 2022).

İşğaldan öncəki dövrlərdə də kənd təsərrüfatının əhalinin əsas məşğuliyyətini təşkil etdiyi Füzuli və digər bölgələrdə işğaldan azad edildikdən sonra da texnologiyanın təkmilləşməsi və müasir suvarma sistemlərinin tətbiqi vasitəsilə əkinçilik, bağçılıq və digər bu tipli təsərrüfatların yaranması və genişlənməsi Qarabağ iqtisadi rayonu üçün əsas prioritet istiqamətlərdən biridir.

Bölgədə yaradılması və inkişaf etdirilməsi planlanan digər sahələr:

- Meyvə-tərəvəz istehsalı;
- Ət kəsimi müəssisələri;
- Baramaçılıq, üzümçülük təsərrüfatları;
- Baramaqurutma, dəri və yun qəbulu məntəqələri;
- Şərabçılıq müəsissələri.

Prioritet istiqamətlərdən biri də müxtəlif layihələrin dəstəklənməsidir. Bunlara startap layihələrini, turizmin inkişafı ilə bağlı layihələri, dağ-mədən sənayesinin

inkişaf etdirilməsi ilə bağlı layihələri, bundan başqa ekoloji tarazlığın təmin edilməsi, KİV-lərin, rəqəmsal iqtisadiyyatın, internet və telekommunikasiya xidmətlərinin inkişafı ilə əlaqədar layihələri misal çəkə bilərik. Qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönəlmiş biznes layihələrin dəstəklənməsi də bu region üçün diqqət mərkəzində olan vacib məsələlərdəndir (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, 2022).

2020-ci ilin noyabrında qələbə ilə nəticələnən müharibədən sonra otuz ildən artıq müddət ərzində işğal altında qalmış, həmin dövr ərzində təbii sərvətləri istismar edilmiş, hərbi məqsədlər üçün istifadə olunmuş və dağıdılaraq yararsız hala salınmış ərazilərimizin yenidən bərpası və bu bölgədəki yaşayışın və fəaliyyətin yenidən qurulması dövlətin bundan sonrakı ən önəmli hədəflərindən biridir. Ölkənin ortamüddətli dövrdəki planlarına işğaldan azad olunmuş ərazilərdə əhalinin yenidən məskunlaşdırılması üçün lazimi həyat şəraitinin qurulması, həmin ərazilərdə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsi üçün infrastruktur layihələrinin hazırlanması, sosial vəziyyətinin yaxşılaşdırılması, həvəsləndirici tədbirlərin həyata keçirilməsi daxildir.

## 3.2. İşğaldan azad edilmiş regionların biznes mühitinin qurulması və yaxşılaşdırılması istiqamətində mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətləri

İşğaldan azad edilmiş ərazilərdə xüsusilədə Füzuli rayonunda biznes mühitini təhlil etmək və əhalinin regiona qarşı münasibətini öyrənmək məqsədilə anonim anket sorğusu keçirilmişdir. Sorğunun nəticələrini analiz etmək üçün SPSS proqramından istifadə edilmişdir. Sorğuda 60-ı sahibkar olmaqla ümumilikdə 200 nəfər iştirak etmişdir. İştirakçılara 12 sual verilmişdir. Bu sualları şərti olaraq üç hissəyə ayıra bilərik.

1. İştirakçılar haqqında məlumatlar (yaşları, cinsləri, təhsilləri, hansı rayondan olmaları və işğaldan azad olunmuş rayonlarda yaşamağı planlaşdırıb planlaşdırmamaları)

2. İştirakçıların sahibkarlıq fəaliyyətləri və bununla bağlı planları haqqında məlumatlar

3. İştirakçıların Füzuli rayondakı biznes mühiti haqqında düşüncələri və təklifləri

İlk olaraq iştirakçıların özləri haqqında verdikləri məlumatlar təhlil edilmişdir. Bunun üçün təsviri statistikadan istifadə edilmişdir. Verilənlər toplusunun (anketdən əldə edilmiş nəticələrin) xüsusiyyətlərinin kəmiyyətcə təsvir edilməsinin öyrənilməsi təsviri statistika adlanır. Frekans təhlili təsviri statistikanın bir hissəsidir. Statistikada frekans bir hadisənin baş vermə sayıdır. Bu analiz zamanı seçimin neçə dəfə təkrarlanması və bunun neçə faiz olduğu göstərilir (https://www.researchoptimus.com/article/frequency-analysis.php, 2013).

Anketlə bağlı ilk analiz olaraq respondentlərin cinsiyyət faktoru üzrə frekansının öyrənilməsi nəzərdə tutulmuşdur.

**Cədvəl 4:Cinsiyyət faktoru üzrə frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Kişi | 104 | 52.0 |
| Qadın | 96 | 48.0 |
| Cəm | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

SPSS proqramı vasitəsilə frekans analizi aparılan zaman faiz həm ümumi anket iştirakçılarına uyğun, həm də suala cavab verən iştirakçıların sayına əsasən hesablanır. Lakin bu araşdırmanın sorğusunda 200 iştirakçının hər biri suala cavab verdiyindən bu faiz göstəriciləri eyni idi. Bu səbəbdən də onlar ayrılıqda göstərilməyib.

Cədvələ 4-ə əsasən iştirak edənlərdən 96-sı qadındır, bu isə ümumi iştirakçıların 48 faizini təşkil edir. Geriyə qalan 104 kişi cinsinə mənsub iştirakçı isə 52 faiz təşkil edir.

Frekans analizinin nəticələrinin təsvir edilmə üsullarından bir digəri isə qrafiklə təsvir üsuludur. Bu üsuldan istifadə edərək anket iştirakçılarının yaş frekansı üzrə analiz nəticələri aşağıdakı kimi göstərilmişdir.

**Qrafik 1: Yaş faktoru üzrə frekans analizi**




**Mənbə:** Müəllifin hesablamaları

Analizin nəticəsindən görünür ki, anketdə 6 faiz 0-18 yaş, 39 faiz 18-25 yaş, 37 faiz 25-35 yaş aralığındakı və 18 faiz 35 yaşdan yuxarı insanlar iştirak etmişdir. Çıxan nəticədən görə bilərik ki, respondentlərin əsas hissəsini 18-35 yaş arası insanlar təşkil edir.

Anketdəki üçüncü sual respondentlərin təhsili ilə bağlı olan sualdır. Bu sualda iştirakçılara dörd seçim verilsə də (orta, bakalavr, magistr və doktorantura), sorğu yalnız bakalavr və magistr təhsili olanlar arasında keçirilmişdir (0-18 yaş arasındakı iştirakçılar istisna olmaqla).

**Cədvəl 5: Təhsil səviyyəsinə görə frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Bakalavr | 86 | 43.0 |
| Magistr | 102 | 51.0 |
| Orta | 12 | 6.0 |
| Cəm | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Bundan sonrakı sual iştirakçıların hansı rayondan olması ilə bağlı idi. Araşdırmanın əsasını işğaldan azad edilmiş bölgələr əhatə etdiyi üçün seçimlər arasında işğaldan azad edilmiş rayonlar tək-tək əlavə edilmiş, geriyə qalan bölgələr isə “Digər” variantında öz əksini tapmışdır.

Aşağıdakı cədvəl 6-dan görürük ki, toplamda 200 nəfər iştirakçının 144 nəfəri digər bölgələrdəndi. Geriyə qalan 56 nəfər iştirakçı isə işğaldan azad olunmuş 9 rayon arasında paylanmışdır. Faiz olaraq baxsaq 28 faiz respondent işğaldan azad edilmiş bölgələrdən, 72 faizi isə digər bölgələrdəndir. İşğaldan azad edilmiş bölgələrdən olan iştirakçıların ən çoxu Ağdam, Zəngilan və Füzuli rayonundandırlar. Ümumilikdə Füzuli rayonundan olan iştirakçılar 12 nəfərdir ki, bu da bütün iştirakçıların 6 faizidir.

**Cədvəl 6: Rayon üzrə frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Ağdam | 14 | 7.0 |
| Cəbrayıl | 2 | 1.0 |
| Zəngilan | 12 | 6.0 |
| Füzuli | 12 | 6.0 |
| Kəlbəcər | 4 | 2.0 |
| Laçın | 4 | 2.0 |
| Qubadlı | 2 | 1.0 |
| Şuşa | 4 | 2.0 |
| Xocalı | 2 | 1.0 |
| Digər | 144 | 72.0 |
| Cəm | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Həyat şəraiti və infrastruktur qurulduqdan sonra əhalinin nə qədər hissəsinin işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaq istəyəcəyini müəyyənləşdirmək üçün bununla əlaqədar sual anketə əlavə edilmiş və 200 iştirakçıdan cavab alınmışdır.

**Cədvəl 7: İşğaldan azad edilmiş ərazilərdə məskunlaşma planı ilə bağlı frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Bəli | 74 | 37.0 |
| Xeyr | 126 | 63.0 |
| Cəm | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 7-yə əsasən 200 nəfərdən 74-ü yəni 37 faizi azad edilmiş ərazilərdə

yaşamağı planlaşdırır.

Burada araşdırılmalı olan bir məsələ də işğaldan azad edilmiş ərazilərdə yaşamağı planlaşdıran 37 faiz insanın əsasən hansı bölgədən olmasıdır.

Bunun üçün çarpaz tablo analizindən istifadə edilir. Çarpaz tablo dəyişənləri birlikdə qruplaşdıraraq araşdırmaçılara müxtəlif dəyişənlər arasındakı korrelyasiyanı görməyə kömək edir. Bu üsulla korrelyasiyaların müxtəlif dəyişənlər qrupu arasında necə fərqlilik göstərdiyini müəyyənləşdirə bilirik. Çarpaz tablo vasitəsilə sorğudakı iki və daha çox sual arasındakı əlaqəni təsvir etmək mümkündür. Bu yolla da iştirakçı qruplarının digər suala verdikləri cavabları müqayisə etmək olar (https://www.alchemer.com/resources/blog/cross-tabulation/, 2022).

Respondentlərin hansı bölgədən olmasının onların işğaldan azad edilmiş ərazilərdə yaşama planlarına təsirini araşdırmaq məqsədilə ilk növbədə SPSS vasitəsilə iki dəyişən arasındakı çarpaz tablo çıxarılır.

**Cədvəl 8: Rayon və yaşama planı üzrə çarpaz tablo analizi**

| | | | Yaşama planı | | |
|---|---|---|---|---|---|
| | | | Bəli | Xeyr | Cəm |
| Rayon | Ağdam | Say | 8 | 6 | 14 |
| | | Gözlənilən say | 5.2 | 8.8 | 14.0 |
| | Cəbrayıl | Say | 2 | 0 | 2 |
| | | Gözlənilən say | 0.7 | 1.3 | 2.0 |
| | Zəngilan | Say | 6 | 6 | 12 |
| | | Gözlənilən say | 4.4 | 7.6 | 12.0 |
| | Füzuli | Say | 10 | 2 | 12 |
| | | Gözlənilən say | 4.4 | 7.6 | 12.0 |
| | Kəlbəcər | Say | 4 | 0 | 4 |

| | | | | |
|---|---|---|---|---|
| | Gözlənilən say | 1.5 | 2.5 | 4.0 |
| Laçın | Say | 4 | 0 | 4 |
| | Gözlənilən say | 1.5 | 2.5 | 4.0 |
| Qubadlı | Say | 2 | 0 | 2 |
| | Gözlənilən say | 0.7 | 1.3 | 2.0 |
| Şuşa | Say | 2 | 2 | 4 |
| | Gözlənilən say | 1.5 | 2.5 | 4.0 |
| Xocalı | Say | 2 | 0 | 2 |
| | Gözlənilən say | 0.7 | 1.3 | 2.0 |
| Digər | Say | 34 | 110 | 144 |
| | Gözlənilən say | 53.3 | 90.7 | 144.0 |
| Cəm | Say | 74 | 126 | 200 |
| | Gözlənilən say | 74.0 | 126.0 | 200.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 8-də hər rayondan olan iştirakçı qruplarının ayrılıqda işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaq istəyərsinizmi sualına verdikləri cavabları müqayisəli şəkildə göstərilmişdir. “Say” hissəsində iştirakçıların suallara verdikləri cavablara əsasən sayları, “Gözlənilən say” hissəsində isə əgər saylar hər rayon üzrə ümumi faizə uyğun paylansa idi nəticənin necə olacağını göstərilir. Yəni ümumi 200 nəfər iştirakçıdan 74-ü, yəni 37 faizi Qarabağ bölgəsində məskunlaşmağı planlayırsa, hər rayon üzrə iştirakçıların eyni faiz qədər məskunlaşmaq istədiyi halda sayların necə paylanacağı “Gözlənilən say”da əks olunmuşdur. Anket 200 nəfər arasında keçirildiyindən alınan saylar kiçik ədədlər olmuşdur, bu səbəbdən də hər rayon üzrə iştirakçı saylarının faizə görə tapılmasında kəsr ədədlər alınmışdır.

Cədvəldən görünür ki, işğaldan azad olunmuş rayonların hər birində bu say gözlənilən saydan daha çoxdur. Bu o deməkdir ki, bu bölgədən olan insanların 37 faizdən daha çox hissəsi infrastruktur və yaşayış qurulduqdan sonra işğaldan azad olunmuş ərazilərdə yaşamaq istəyir. Eyni ilə digər rayonlardan olan respondentlərində daha azı, yəni 23.6 faizi bu fikirdədir.

Burdan o nəticəyə gələ bilərik ki, iştirakçıların hansı rayondan olması ilə

işğaldan azad edilmiş ərazilərdə yaşamağı planlayıb planlamamaları arasında əlaqə var. Bunu test etmək üçün ilk öncə işğaldan azad olunmuş rayonların hamısını “işğaldan azad edilmiş rayonlar” adı altında birləşdirdik.

**Cədvəl 9: Rayon və yaşama planı arasında çarpaz tablo**

| | | Yaşama planı | | |
|---|---|---|---|---|
| | | Bəli | Xeyr | Cəm |
| Rayon | İşğaldan azad edilmiş rayonlar | 40 | 16 | 56 |
| | Digər | 34 | 110 | 144 |
| Cəm | | 74 | 126 | 200 |

**Mənbə:** Müəllifin hesablamaları

İki dəyişən arasındakı əlaqəni müəyyənləşdirmək üçün chi-squared testindən istifadə etdik. Chi-squared ən çox istifadə edilən korrelasiya testlərindən biridir. Onu dəyişənlər arasındakı əlaqəni (korrelasiyanı) ölçən testlərdən fərqləndirən cəhəti isə chi-squared testinin kateqoriyalı dəyişənlər arasında aparılmasıdır. Bizim araşdırmamızda hər iki dəyişən kateqoriyalı (iki variantlı) olduğundan bu test aparılmışdır. Chi-squared testi hipotez (fərziyyə) testidir. Bizim buradakı fərziyyəmiz respondentlərin işğaldan azad olunmuş rayonlardan olmasının onların burada məskunlaşmaq istəmələrinə təsir etməməsidir.

**Cədvəl 10: Rayon və yaşama planı üzrə Chi-Square Testi**

| | Dəyər | df | Asimptotik Əhəmiyyət (2 tərəfli) | Dəqiq Əhəmiyyət (2 tərəfli) | Dəqiq Əhəmiyyət (1 tərəfli) |
|---|---|---|---|---|---|
| Pearson Chi-Square | 39.550[a] | 1 | <.001 | | |
| Davamlılığın korreksiyası | 37.526 | 1 | <.001 | | |
| Ehtimal nisbəti | 39.168 | 1 | <.001 | | |
| Fisher's Exact Test | | | | <.001 | <.001 |
| Keçərli halların sayı | 200 | | | | |

a. 0 xanada (0.0 %) gözlənilən say 5-dən azdır. Minimum gözlənilən say 20.72-dir.
b. Yalnız 2x2 cədvəl üçün hesablanır.

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 10-da chi-squared testinin nəticəsi verilmişdir. Testin nəticəsinə əsasən pearson chi-squared dəyəri 37.421-dir. Həmin dəyərə aid olan “Asimptotik

Əhəmiyyət (2 tərəfli)" hissədə p-dəyəri 0.001 olaraq göstərilmişdir. Nəticənin əhəmiyyətli olması üçün tapılan dəyər müəyyən edilmiş alfa dəyərindən (adətən bu dəyər 0.05 olaraq qəbul edilir) kiçik və ya ona bərabər olmalıdır. Tapılan p-dəyəri 0.001<0.05 olduğundan təhlilimiz əhəmiyyətli sayılır. Yəni iştirakçıların hansı bölgədən olmaları ilə işğaldan azad olunmuş rayonlarda məskunlaşma planları arasında əlaqə olmaması hipotezimiz səhvdir. Chi-squared testi vasitəsilə iki dəyişənin arasında əlaqə olduğunu müəyyənləşdirdik. Lakin bu əlaqənin nə dərəcədə olduğunu bilmək üçün əlavə təhlillər aparılmalıdır. Bu səbəbdən də Phi and Cramer's V testindən istifadə edilmişdir. Bu test dəyişənlər arasındakı təsir dərəcəsini ölçmək üçün istifadə edilir. Bu test chi-squared testinin nəticəsini tənzimləmək üçün əlaqənin gücünü ölçür.

**Cədvəl 11: Rayon və yaşama planı üzrə Phi and Cramer's V testi**

| | | Dəyər | Təxmini əhəmiyyət |
|---|---|---|---|
| Nominal ilə Nominal | Phi | -.433 | <.001 |
| | Cramer's V | .433 | <.001 |
| Keçərli halların sayı | | 200 | |

**Mənbə:** Müəllifin hesablamaları

Bu testimizdə də p-dəyəri aşağı olduğundan nəticəmiz əhəmiyyətlidir. Burada çıxan dəyər 0.433 dür.

Dəyərin 0.25-də yuxarı olması dəyişənlər arasındakı əlaqənin çox güclü olduğunu göstərir (https://www.semanticscholar.org/paper/User's-guide-to-correlation-coefficients-Akoğlu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f/figure/2, 2018).

Nəticə onu göstərir ki, işğaldan azad edilmiş rayonlardan olan insanların əksəriyyəti (70.9 faizi) öz torpaqlarına qayıtmağı və həyatlarını orada davam etdirməyi planlayırlar.

Füzuli rayonunda olan 12 iştirakçıdan 10-u zəruri infrastruktur və həyat şəraiti qurulduqdan sonra həmin ərazilərdə məskunlaşmaq istədiklərini bildiriblər. Bu həmin rayondan olan iştirakçıların 83.33 faizini təşkil edir. Nümunə sayımız çox az olduğundan dəqiq nəticəyə gələ bilməsək də ümumilikdə deyə bilərik ki, rayonda məskunlaşma istəyi kifayyət qədərdir.

Anketin digər hissəsində respondentlərin sahibkarlıq fəaliyyəti ilə məşğul olub olmamaları, fəaliyyət növləri və son olaraq da işğaldan azad olunmuş ərazilərdə və Füzuli rayonu ərazisində fəaliyyət göstərməyi planlayıb planlamamaları haqqında suallar verilmişdir. Sorğunun bu hissəsinin əsas məqsədi işğaldan azad olunmuş rayonlarda xüsusilədə Füzulidə biznes qurmağa olan təşviqi müəyyənləşdirməkdir.

Bunun üçün ilk öncə iştirakçıların sahibkarlıq subyektləri haqqında verdikləri məlumatlara baxaq.

**Cədvəl 12: Sahibkarlıqla fəaliyyəti üzrə frekans analizi**

| | Frekans | Faiz |
|---|---|---|
| Bəli | 60 | 30.0 |
| Xeyr | 140 | 70.0 |
| Cəm | 200 | 100.0 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 12-dən görünür ki, sorğunu dolduran 200 nəfərdən 60-ı, yəni 30 faizi sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Geriyə qalan 140 nəfər isə biznes sahibi olmayan insanlardır.

Bundan sonrakı bir neçə analiz yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan 60 nəfər üçün nəzərdə tutulmuşdur. İlk olaraq sahibkarların sahibkarlıq subyektlərinin bölgüsü üzrə analzi aparılmışdır.

**Qrafik 2: Sahibkarlıq subyektləri arasında frekans analizi**




**Mənbə:** Müəllifin hesablamaları

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan 60 nəfər sahibkarlıq subyektləri üzrə qrafik 2-dəkı kimi bölünmüşdür. Analizin nəticəsindən görünür ki, anketi dolduran sahibkarların 28-i, yəni təqribi 46.67 faizi fərdi qaydada fəaliyyət göstərir. 10 nəfər mikro və 10 nəfər kiçik sahibkarlıq subyekti olanların hər biri 16.67 faiz təşkil edir. İştirakçılar arasında 8 nəfər orta sahibkar var ki, bu da 13.33 faizdir. Yalnız 6.66 faiz, yəni 4 nəfər iri sahibkar sorğuda iştirak etmişdir.

Sahibkarlıq subyektlərinin bölgüsü "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən müəssisənin işçi sayı və illik gəlirləri nəzərə alınaraq bölünür.

Bu sahibkarların hansı sahədə fəaliyyət göstərdiklərini müəyyənləşdirmək üçün anketə fəaliyyət növləri ilə bağlı sual daxil edilmişdir. Variantlara ictimai iaşə, istehsal, ticarət, turizm və xidmət sahələri daxil edilmişdir. Xidmət sahələri dedikdə buraya həm mühasibatlıq, maliyyə hüquq kimi xidmətlər, həm də taksi, dərzi və s. fəaliyyətləri aiddir (iştirakçılar arasında kənd təsərrüfatı ilə məşğul olan yoxdur).

**Qrafik 3: Fəaliyyət növləri üzrə frekans analizi**




**Mənbə:** Müəllifin hesablamaları

Qrafik 3 sahibkarların fəaliyyət növləri üzrə bölgüsünü göstərir. Bu qrafikə əsasən respondentlərin 20-si, 33.33 faizi ticarət fəaliyyəti ilə məşğul olur. İkinci

sırada xidmət sektoru gəlir. Belə ki, 16 nəfər bu sahə ilə məşğul olduğunu bildirmişdir. Bu da bütün sahibkarların 26.67 faizini təşkil edir. 12 nəfərin seçdiyi istehsal sahəsi 20 faizlik hissəni əhatə edir. 60 sahibkardan yalnız 8-i, 13.33 faizi ictimai iaşə fəaliyyəti ilə məşğul olur. Nümunəmizdə ən az seçilən 6.67 faizlik hissə isə 4 nəfərin seçdiyi turizm sahəsidir.

Bu iki dəyişənin arasındakı əlaqəni müəyyənləşdirmək üçün çarpaz tablodan istifadə edilmişdir.

**Cədvəl 13: Sahibkarlıq subyektləri və fəaliyyət sahələri arasında çarpaz tablo**

| | | fəaliyyət sahələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | İctimai iaşə | İstehsal | Ticarət | Turizm | Xidmət | Cəm |
| | Fərdi sahibkarlıq | 2 | 8 | 12 | 0 | 6 | 28 |
| | İri sahibkarlıq | 2 | 2 | 0 | 0 | 0 | 4 |
| | Kiçik sahibkarlıq | 4 | 0 | 4 | 0 | 2 | 10 |
| | Mikro sahibkarlıq | 0 | 2 | 2 | 2 | 4 | 10 |
| | Orta sahibkarlıq | 0 | 0 | 2 | 2 | 4 | 8 |
| Cəm | | 8 | 12 | 20 | 4 | 16 | 60 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 13 müxtəlif fəaliyyət növləri ilə məşğul olan respondentlərin nə qədərinin hansı sahibkarlıq subyektinə sahib olduğunu özündə əks etdirir. Cədvəldən görə bilərik ki, fərdi sahibkarların əksəriyyəti (12) ticarət sahəsində fəaliyyət göstərir. Geri qalanlar isə istehsal (8) və xidmət sektorundadır. İştirakçılardan yalnız 2-si fərdi qaydada ictimai iaşə fəaliyyəti ilə məşğuldur. Sorğuda iştirak edən 4 iri sahibkardan 2-si ictimai iaşə, 2-si isə istehsal sahəsindəndir. Kiçik sahibkarlıq subyekti olan iştirakçılar ictimai iaşə, ticarət və xidmət müəssisəsidir ki, sayları mütənasib olaraq 4, 4 və 2-dir. İstehsal, ticarət və turizm sektorunda hər biri 2 ədəd olmaqla toplamda 6 ədəd mikro sahibkarlıq subyekti var. Geriyə qalan 4 mikro sahibkar isə xidmət sektorunda fəaliyyət göstərir. Orta sahibkarlıq subyekti olan respondentlərdən 2-si ticarət, 2-si turizm və 4-ü də xidmət sahəsində fəaliyyət göstərir.

Fəaliyyət növləri ilə bağlı sualda variantlar arasına kənd təsərrüfatı fəaliyyəti də daxil edilmişdir. Lakin respondentlərdən heç biri bu fəaliyyət növü ilə məşğul olmurlar. Bunun əsas səbəbi anketin Bakı şəhərində keçirilməsi və məhdud şəkildə yayılmasıdır.

İşğaldan azad olunmuş rayonlarda və Füzuli rayonu ərazisində bizneslə məşğul olmağı planlayıb planlamamaları anketin əsasını təşkil edən suallardandır. Burada məqsəd həmin ərazilərdə sahibkarlıq fəaliyyətilə məşğul olmaqla bağlı əhalinin fikrini öyrənmək, daha çox hansı sahələrə qarşı maraq olduğunu əvvəlcədən müəyyənləşdirməkdir. Bunun üçün qruplaşdırılmış bar diaqramından istifadə edilmişdir.

Standart bar diaqramı kimi, qruplaşdırılmış bar diaqramı da məlumatların paylanmasını göstərmək və ya müxtəlif kateqoriyalar üzrə müqayisələr aparmaq üçün qurulur. Qruplaşdırılmış bar diaqramının fərqli cəhəti məlumatların yalnız bir deyil, iki fərqli kateqoriyalı dəyişən üzrə bölünməsidir. İkinci kateqoriya dəyişəninin birincinin hər səviyyəsində necə dəyişdiyinə baxmaq istədiyiniz zaman və ya birinci kateqoriya dəyişəninin ikincinin səviyyələri arasında necə dəyişdiyinə baxmaq istədiyiniz zaman qruplaşdırılmış bar diaqramından istifadə olunur.

Analizimizdə qruplaşdırılmış bar diaqramından istfadə edərək respondentlərin Füzuli və işğaldan azad edilmiş digər bölgələrdə müxtəlif sektorlar üzrə fəaliyyət göstərmə niyyətləri göstərilmişdir. 200 iştirakçı həm Füzuli həm də işğaldan azad edilmiş digər rayonlar üçün ayrılıqda hansı fəaliyyətlə məşğul olmağı planladıqlarını qeyd etmişdir.

**Qrafik 4:Fəaliyyət sahələri üzrə qruplaşdırılmış bar diaqramı**




**Mənbə:** Müəllifin hesablamaları

Qrafik 4-ə əsasən əvvəlcə işğaldan azad edilmiş digər bölgələrini analiz etsək görərik ki, 200 nəfərdən 94-ünün bu rayonlarda heç bir biznes sahəsi ilə məşğul olmaq planı yoxdur. Füzuli rayonu üçün bu rəqəm 114-dür. Yəni iştirakçıların yalnız 43 faizini təşkil edən 86 nəfər Füzuli rayonunda bizneslə məşğul olmağı planlayır. İştirakçıların əksəriyyətinin (140 nəfər) ümumiyyətlə sahibkarlıq fəaliyyəti ilə məşğul olmadığını nəzərə alarsaq bu faiz heç də təəcüblü deyil.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun digər ərazilərində ən çox üstünlük verilən sektor 15 faiz iştirakçının (30 nəfər) seçdiyi turizm sektorudur. Füzuli rayonu üçün isə bu göstərici 16 nəfərin seçməsi ilə 8 faiz olmuşdur. Bu qədər insanın turizm sektorunda fəaliyyət göstərməyə meyilli olmasını bu regionunun böyük turizm potensialının olması və Füzuli rayonunda inşa edilən hava limanı ilə əlaqələndirə bilərik.

Füzuli rayonunda fəaliyyət göstərməyi planlayan 86 nəfərdən 28-i (toplam iştirakçıların 14 faizi) ictima iaşə fəaliyyəti ilə məşğul olacağını bildirmişdir. Bunun əsas səbəblərindən biri Füzuli hava limanı vasitəsilə nəinki bu rayona gələnlərin həm də Qarabağ və Şərqi Zəngəzurun digər turistik bölgələrinə gələnlərin tranzit olaraq bu rayondan istifadə edəcək olmasıdır. Bu da rayonda kafe və restoranlara olan

tələbin çox olması deməkdir. Bu səbəbdən də bu fəaliyyət növü ilə məşğul olanlar və ya olmağı planlayanlar üçün Füzuli  rayonu yeni imkanlar yaradır. İşğaldan azad edilmiş digər rayonlarda bu fəaliyyət növünə üstünlük verənlər 11 faizdir (22 nəfər). Bunun Füzulidəki göstəricidən daha aşağı olmasının səbəbi burada sahibkarlıqla məşğul olmaq istəyənlərin əksəriyyətinin əsasən ticarət və turizm sahələrinə üstünlük verməsidir.

Vurğuladığımız kimi işğaldan azad edilmiş digər rayonlarda respondentlərin ən çox seçdiyi sahələrdən biri də ticarətdir. Bu sahədə fəaliyyət göstərməyi planladığını bildirən 24 nəfər ümumi iştirakçıların 12 faizidir. Füzuli rayonunda bu sahə ilə məşğul olmaq istəyənlərin sayı digər rayonlara nisbətən azdır. Belə ki, Füzuli rayonu üçün ticarət fəaliyyətini 200 iştirakçıdan yalnız 10-u seçmişdir, bu da 5 faiz edir.

Əhalinin məskunlaşması və müxtəlif biznes sahələrinin inkişaf etməsi ümumi regionda xidmət sahəsinə də tələbatı artıracaq. Bu da bir çox sahibkar və ya sahibkarlıqla məşğul olmağı planlayanlar üçün yeni imkanlar deməkdir. Bu səbəbdən də həm Füzulidə, həm də digər rayonlarda xidmət sahəsini seçənlər yetəri qədərdir. Belə ki, bu sahəni seçənlər işğaldan azad edilmiş digər rayonlarda 14, Füzuli rayononda isə 16 nəfərdir. Faiz nisbəti olaraq isə işğaldan azad edilmiş digər rayonlarda ümumi iştirakçıların 7 faizi, Füzuli rayonunda isə 8 faizidir.

Füzuli rayonu da daxil olmaqla işğaldan azad edilmiş rayonlar üçün digər sektorlara nisbətən ən az seçilən fəaliyyət növləri istehsal və kənd təsərrüfatıdır. İşğaldan azad edilmiş rayonlarla bağlı sualda istehsal sahəsini 12 nəfər (6 faiz), Füzuli rayonu ilə bağlı sualda isə yalnız 6 nəfər (3 faiz) seçmişdir. İşğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatı ilə məşğul olmağı planlayanlar 200 nəfərdən 4-ü, yəni 2 faizidir. Füzuli rayonu üçün bu say nisbətən daha çox, 10 nəfər (5 faiz) olsada bu say regionun potensiyalı üçün çox azdır.

Sorğunun ən böyük məhdudiyyətlərindən biri onun Bakı şəhərində az sayda insan arasında keçirilməsidir. Belə ki, iştirakçılarən fəaliyyət növləri hər sektor üzrə bərabər paylanmamışdır. Hətta 200 nəfər arasında kənd təsərrüfatı ilə məşğul olan yoxdur. Respondentlərin fəaliyyət növləri ilə gələcəkdə də işğaldan azad edilmiş

digər rayonlarda və Füzuli bölgəsində  göstərmək istəyəcəkləri fəaliyyətlə əlaqəli olması kənd təsərrüfatı və istehsal sahəsinə marağın az olmasını izah edə bilər.

Bunun üçün respondentlərin fəaliyyət növləri və onların işğaldan azad edilmiş rayonlarda göstərməyi planladıqları fəaliyyət növləri arasında əlaqə yoxlanılmalıdır. Cədvəl 14 hər fəaliyyət növü üzrə işğaldan azad edilmiş rayonlarda göstərilməyi planlanan fəaliyyət növlərini çarpaz tablo vasitəsilə göstərilmişdir.

**Cədvəl 14: Fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər arasında çarpaz tablo**

| | | Fəaliyyət növü | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Heç biri | İctimai iaşə | İstehsal | Ticarət | Turizm | Xidmət | Cəm |
| işğaldan azad edilmiş rayonlarda | Heç biri | 78 | 0 | 2 | 6 | 0 | 8 | 94 |
| | İctimai iaşə | 12 | 8 | 2 | 0 | 0 | 0 | 22 |
| | İstehsal | 4 | 0 | 6 | 2 | 0 | 0 | 12 |
| | Ticarət | 10 | 0 | 2 | 8 | 2 | 2 | 24 |
| | Turizm | 22 | 0 | 0 | 2 | 2 | 4 | 30 |
| | Xidmət | 10 | 0 | 0 | 2 | 0 | 2 | 14 |
| | Kənd təsərrüfatı | 4 | 0 | 0 | 0 | 0 | 0 | 4 |
| Cəm | | 140 | 8 | 12 | 20 | 4 | 16 | 200 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 14-ün üst sətrində iştirakçıların fəaliyyət növləri göstərilmişdir. Sağ sütunda isə həmin iştirakçıların işğaldan azad edilmiş rayonlarda göstərməyi planladıqları fəaliyyət növləri əks etdirilmişdir. Cədvəldən görə bilərik ki, biznes ilə məşğul olmayan iştirakçıların böyük əksəriyyətini təşkil edən 78 nəfər işğaldan azad edilmiş rayonlarda da sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı planlamırlar. Onlardan 12-si ictimai iaşə, 10-u ticarət, 22-si turizm və 10-u xidmət sahəsində bizneslə məşğul fikrindədir. İstehsal və kənd təsərrüfatı sahəsinin hər birində 4 iştirakçı fəaliyyət göstərmək istəyir. işğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olma planı olanların hamısı hazırda biznes sahəsi ilə məşğul olmayan iştirakçılardandır. Bu da onu göstərir ki, fəaliyyət sahəsini

dəyişərək kənd təsərrüfatı sahəsinə keçmək istəyən iştirakçı yoxdur.

İctimai iaşə fəaliyyətinə nəzər salsaq görərik ki, burada da ictimai iaşə fəaliyyətilə məşğul olan 8 respondentin hamısı işğaldan azad edilmiş rayonlarda da eyni növ fəaliyyətlə məşğul olmağı planlayırlar.

Hal hazırda istehsal sektorunda olan 12 iştirakçının 50 faizi öz biznes sahəsi işğaldan azad edilmiş rayonlarda da davam etdirmək istəyir. Geriyə qalan 2 nəfər öz sahəsini dəyişərək ictimai iaşə, 2-si isə ticarət sektoruna yönəlmək istəyir. İstehsalla məşğul olan digər 2 iştirakçının isə işğaldan azad edilmiş rayonlarda fəaliyyətlə bağlı heç bir planı yoxdur.

Digər sektorlar kimi ticarət sektoru üzrə fəaliyyət göstərənlərin ən çoxu işğaldan azad edilmiş rayonlarda eyni sahədə çalışmağı planlayır. Bu iştirakçılar 20 nəfərdən 8-ni təşkil edir. 6 nəfər heç bir fəaliyyət növü ilə məşğul olmayacaqlarını bildirmişlər. Qalan iştirakçılardan 2-si istehsal, 2-si turizm, 2-si isə xidmət sahəsi üzrə işğaldan azad edilmiş rayonlarda bizneslə məşğul olmağı planlayır.

İştirakçılar arasında yalnız 4-ü turizm sahəsi ilə məşğul olur. Onlardan ikisi işğaldan azad edilmiş rayonlarda da eyni fəaliyyətlə məşğul olmağı planlarkən 2-si öz sektorunu turizmə dəyişməyi planlayır.

Digər sahələrdən fərqli olaraq xidmət sahəsində çalışanların yalnız 2-si (16 nəfərdən) işğaldan azad edilmiş rayonlarda bu sahə ilə məşğul olmaq istəyir. Onların 50 faizi ümumiyyətlə burada fəaliyyət göstərməyi planlamır. Geriyə qalan 6 nəfərdən 4-ü turizm, 2-si isə ticarət sektorlarında fəaliyyətə başlayacaqlarını qeyd etmişdirlər.

Bu əlaqəni test etmək üçün chi-square testindən istifadə etsək nəticə qeyri-dəqiq olacaq. Belə ki, cədvəl 14-ə baxsaq oradakı xanaların bir çoxunun 0 və ya aşağı rəqəmlər olduğunu görə bilərik. Lakin chi-square testinin düzgün nəticə verməsi üçün xanaların 20 faizindən daha azında rəqəmlər 5 dən daha aşağı ola bilər. Cədvəl 15-ə nəzər salsaq görərik ki, bu faiz göstəricisi bizim nümunəmiz üçün 78.6 faizdir. Bu da chi-square testini bu nümunə üçün yetərsiz edir. Bu səbəbdən də aradakı əlaqəni ölçmək üçün fisher-freeman-exact testinin nəticəsi əsas götürülür. Testdə monte karlo metodundan istifadə edilib. Monte Karlo Metodu və ya çox

ehtimal simulyasiyası kimi də tanınan Monte Karlo Simulyasiyası qeyri-müəyyən bir hadisənin mümkün nəticələrini qiymətləndirmək üçün istifadə edilən riyazi bir texnikadır (https://www.ibm.com/cloud/learn/monte-carlo-simulation).

**Cədvəl 15: Fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər üzrə Chi-Square Testi**

| | Dəyər | df | Asimptotik Əhəmiyyət (2 tərəfli) | Monte Carlo Sig. (2 tərəfli) | | |
|---|---|---|---|---|---|---|
| | | | | Əhəmiyyət | 99% Güvən aralığı | |
| | | | | | Aşağı hədd | Yuxarı hədd |
| Pearson Chi-Square | 151.733[a] | 30 | <.001 | .000[b] | .000 | <.001 |
| Ehtimal nisbəti | 102.936 | 30 | <.001 | .000[b] | .000 | <.001 |
| Fisher-Freeman-Halton Exact Test | 85.971 | | | .000[b] | .000 | <.001 |
| Keçərli halların sayı | 200 | | | | | |

a. 33 xanada (78.6%) gözlənilən say 5-dən azdır. Minimum gözlənilən say 0.08-dir.

b. 2000000 başlanğıc göstəricisi ilə 1000 nümunə cədvəlinə əsaslanır.

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 15-ə əsasən fisher-freeman-exact testində p-dəyəri 0.05-dən daha aşağıdır. Etimad intervalına nəzər salsaq görərik ki, burada da həm aşağı sərhəd həm yuxarı sərhəd 0.05-dən aşağıdır. Bununla da deyə bilərik ki, fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər arasında əlaqə mövcuddur.

Bu əlaqənin dərəcəsini ölçmək üçün Phi and Cramer's V testindən istifadə edilmişdir.

**Cədvəl 16: Fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər üzrə Phi and Cramer's V testi**

| | | Dəyər | Təxmini dəyər |
|---|---|---|---|
| Nominal ilə Nominal | Phi | .871 | <.001 |
| | Cramer's V | .390 | <.001 |
| Keçərli halların sayı | | 200 | |

**Mənbə:** Müəllifin hesablamaları

Burada cədvəl 14 (çarpaz tablonu əks etdirən cədvəl) 6*7 (2*2-dən böyük)

olduğu üçün burada cramer’s testinin nəticəsini əsas götürəcəyik (http://web.pdx.edu/~newsomj/pa551/lectur15.htm).

Dəyərin 0.25-də yuxarı, 0.39 olması iştirakçıların fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər arasındakı əlaqənin çox güclü olduğunu göstərir (https://www.semanticscholar.org/paper/User's-guide-to-correlation-coefficients-Akoğlu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f/figure/2, 2018).

Ümumiləşdirsək deyə bilərik ki, iştirakçıların bir çoxu sahibkarlıq fəaliyyətləri ilə bağlı əvvəlki rejimlərini dəyişmirlər. Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmayanların bir çoxu işğaldan azad edilmiş rayonlarda da fəaliyyət göstərməyə üstünlük vermir və müxtəlif biznes subyektləri olan iştirakçıların əksəriyyəti işğaldan azad edilmiş rayonlarda da öz fəaliyyət sahəsi ilə məşğul olmağı planlayır. Bundan əlavə yeni fəaliyyət sahəsinə başlamaq istəyənlər və ya öz fəaliyyət sahəsini dəyişməyi planlayan iştirakçılar əsasən ictimai iaşə və turizm sektoruna üstünlük verirlər. Bu da işğaldan azad edilmiş rayonlarda bu sahələrin inkişafı üçün potensial olduğunu göstərir.

Eyni əlaqənin olub olmaması əhalinin fəaliyyət növü və Füzuli rayonunda göstərməyi planladıqları fəaliyyət növləri arasında da yoxlanılıb. Bunun üçün ilk öncə bu ikisi arasındakı çarpaz tablonu analiz edək.

**Cədvəl 17: Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər arasında çarpaz tablo**

| | | Növü | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Heç biri | İctimai iaşə | İstehsal | Ticarət | Turizm | Xidmət | Cəm |
| Füzuli | Heç biri | 90 | 0 | 4 | 10 | 0 | 10 | 114 |
| | İctimai iaşə | 14 | 8 | 2 | 2 | 2 | 0 | 28 |
| | İstehsal | 2 | 0 | 2 | 0 | 0 | 2 | 6 |
| | Kənd təsərrüfatı | 8 | 0 | 0 | 0 | 0 | 2 | 10 |
| | Ticarət | 2 | 0 | 4 | 4 | 0 | 0 | 10 |
| | Turizm | 12 | 0 | 0 | 2 | 2 | 0 | 16 |
| | Xidmət | 12 | 0 | 0 | 2 | 0 | 2 | 16 |
| Cəm | | 140 | 8 | 12 | 20 | 4 | 16 | 200 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 17-ya əsasən deyə bilərik ki, sahibkarlıq subyekti olmayan 140 iştirakçımızın 90-ı (64.29 faizi) Füzuli rayonunda da sahibkarlıqla məşğul olmağı planlamır. Onların qalanlarından 14-ü ictimai iaşə, 12-si turizm, 12-si xidmət, 8-i kənd təsərrüfatı, 2-si istehsal və 2-si də ticarət sahəsində yeni biznes fəaliyyətinə başlamağı planlayırlar.

İctimai iaşə fəaliyyəti ilə məşğul olan 8 nəfər işğaldan azad edilmiş rayonlarda olduğu kimi Füzuli rayonunda da öz fəaliyyət sahələrini davam etdirmək istəyirlər.

Digər sahələrdən fərqli olaraq istehsal sahəsində fəaliyyət göstərən respondentlərin sadəcə 2-si Füzulidə istehsalla məşğul olmaq istəyir. Onlardan 4-ünün burada bizneslə məşğul olmaq planı yoxdur, 4-ü isə ticarətlə məşğul olacağını bildirmişdir. İstehsal fəaliyyəti olan 2 iştirakçı isə Füzuli rayonunda ictimai iaşə fəaliyyəti ilə məşğul olmaq istəyir.

Hazırkı sahibkarlıq subyektləri ticarət fəaliyyəti ilə bağlı olan 20 iştirakçının 50 faizini Füzuli rayonunda fəaliyyət göstərməyi planlamır. Geriyə qalan 10 nəfərdən 4-ü fəaliyyət sahəsini dəyişmədən Füzuli rayononda bizneslə məşğul olmaq istəyir. Fəaliyyət sahəsi ticarət olan respondentlərdən 2-si ictimai iaşə, 2-si turizm və 2-si də xidmət sahəsində fəaliyyət göstərməyə üstünlük vermişdir.

Anketi dolduranlar arasında sadəcə 4-ü turizmlə məşğuldur. Onlardan ikisi Füzulidə də turizmlə məşğul olmağı planlarkən 2-si ictimai iaşə fəaliyyətinə üstünlük verir.

Xidmət sahəsində biznes subyekti olanların 62.5 faizi Füzulidə hər hansısa bir sahibkarlıq fəaliyyəti ilə məşğul olmayacaqlarını bildirmişdir. Geriyə qalanlardan 2-si istehsal, 2-si kənd təsərrüfatı, 2-si isə xidmət sahəsində fəaliyyətlə məşğul olmağı planlayırlar.

İştirakçıların fəaliyyət növləri və Füzuli rayonunda göstərməyi planladıqları fəaliyyət növləri arasında əlaqəni yoxlamaq üçün monte karlo metodundan istifadə edilmişdir.

**Cədvəl 18: Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər üzrə Chi-Square Testi**

| | Dəyər | df | Asimptotik Əhəmiyyət (2 tərəfli) | Monte Carlo Sig. (2 tərəfli) Əhəmiyyət | 99% Güvən aralığı Aşağı hədd | Yuxarı hədd |
|---|---|---|---|---|---|---|
| Pearson Chi-Square | 125.792[a] | 30 | <.001 | .000[b] | .000 | <.001 |
| Ehtimal nisbəti | 93.931 | 30 | <.001 | .000[b] | .000 | <.001 |
| Fisher-Freeman-Halton Exact Test | 79.252 | | | .000[b] | .000 | <.001 |
| Keçərli halların sayı | 200 | | | | | |

a. 33 xanada (78.6%) gözlənilən say 5-dən azdır. Minimum gözlənilən say 0.12-dir.
b. 624387341 başlanğıc göstəricisi ilə 1000 nümunə cədvəlinə əsaslanır.
**Mənbə:** Müəllifin hesablamaları

Burada fisher-freeman-halton exact testinin nəticəsinə əsasən p-dəyəri 0.05-dən kiçik olduğundan (həm alt, həm üst sərhəddə) respondentlərin fəaliyyət növlərinin onların Füzuli rayonunda göstərmək istədikləri fəaliyyətə təsir etdiyini deyə bilərik. Bu təsirin dərəcəsini ölçmək üçün phi and Cramer's V testindən istifadə edilmişdir.

**Cədvəl 19: Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər üzrə Phi and Cramer's V testi**

| | | Dəyər | Təxmini əhəmiyyət |
|---|---|---|---|
| Nominal ilə Nominal | Phi | .793 | <.001 |
| | Cramer's V | .355 | <.001 |
| Keçərli halların sayı | | 200 | |

**Mənbə:** Müəllifin hesablamaları

Dəyərin 0.25-də yuxarı, 0.35 olması respondentlərin fəaliyyət növləri və Füzuli rayonunda planladıqları fəaliyyət növləri arasındakı əlaqənin çox güclü olduğunu göstərir (https://www.semanticscholar.org/paper/User's-guide-to-correlation-coefficients-Akoğlu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f/figure/2, 2018).

Çıxan nəticəyə əsasən iştirakçıların böyük hissəsinin Füzuli rayonunda göstərməyi planladıqları sahələr ictimai iaşə, turizm və xidmət sahələridir. Lakin yuxarıda vurğuladığımız əlaqəni nəzərə alsaq görərik ki, öz sahibkarlıq fəaliyyətini davam etdirmək istəyənlərdən başqa, sahibkarlıq subyekti olmayıb Füzuli rayonunda yeni sahibkarlıq fəaliyyətinə başlamağı planlayanların və ya hazırda başqa fəaliyyət növü ilə məşğul olub fəaliyyət sahəsini dəyişmək istəyənlərin əksəriyyəti ictimai iaşə, kənd təsərrüfatı və turizm sahəsinə üstünlük verirlər. Bu da iştirakçıların Füzuli rayonunda bu sahələrə tələbat olacağını düşünməsi ilə əlaqədar ola bilər.

Anketdə iştirakçıların Füzuli rayonunda inkişaf edəcəyini düşündükləri sahələrlə bağlı fikirləri də soruşulmuşdur. Hər bir fəaliyyət sahəsinin Füzuli rayonunda inkişafı haqqında respondentlərin fikirləri öyrənilib. Bu fəaliyyət sahələrinə kənd təsərrüfatı, ictimai iaşə, xidmət, turizm, istehsal və ticarət daxildir. Seçənəklər isə "razıyam", "qismən razıyam" və "razı deyiləm" olmuşdur.

Sualların nəticələrinin etibarlılığını ölçmək üçün "Cronbach's alpha" testindən istifadə edilmişdir.

**Cədvəl 20: Etibarlılıq testi**

| Cronbach's Alpha | Say |
|---|---|
| .822 | 6 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 20-yə əsasən testin nəticəsinin 0.822 olması testin yüksək etibarlılığa malik olmasını göstərir.

Daha sonra hər bir sahə üzrə ayrıca frekans analizi edilmiş, çıxarılan ayrıca frekans cədvəlləri müəllif tərəfindən ümumiləşdirilərək bir cədvəldə toplanmışdır.

**Cədvəl 21: Müxtəlif sektorların inkişafı üzrə frekans analizi**

| | Razıyam | Qismən razıyam | Razı deyiləm |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 174 (87%) | 22 (11%) | 4 (2%) |

| | | | |
|---|---|---|---|
| İctimai iaşə | 150 (75%) | 40 (20%) | 10 (5%) |
| Turizm | 118 (59%) | 46 (23%) | 36 (18%) |
| Xidmət | 137 (68.5%) | 48 (24%) | 15 (7.5%) |
| İstehsal | 143 (71.5%) | 46 (23%) | 11 (5.5 %) |
| Ticarət | 146 (73%) | 42 (21%) | 12 (6%) |
| Say | 200 | | |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl 21 Füzuli rayonunda müxtəlif sahələrin inkişafı ilə bağlı fikirlərini göstərir. Cədvəldən görünür ki, hər bir sahə üçün iştirakçıların böyük əksəriyyəti bu sahələrin inkişaf edəcəyinə inanır. Ən yüksək göstərici kənd təsərrüfatı faəliyyətindədir, belə ki, iştirakçıların 87 faizi bu sahənin inkişaf edəcəyini fikirləşir. Kənd təsərrüfatının Füzuli rayonunun iqtisadiyyatında önəmli rol oynayacağı ilə razılaşmayanlar sadəcə 2 faiz təşkil edir. Turizm istisna olmaqla digər bütün sahələrdə inkişaf etməsi ilə bağlı "razı deyiləm" cavabını seçənlər 8 faizdən daha aşağıdır. Bu da biznes sahəsi ilə məşğul olan iştirakçlar da daxil olmaqla iştirakçıların çoxu Füzuli rayonda bütün sahələr üçün biznes mühitinin əlverişli olduğunu düşünürlər. Füzuli rayonunun turizmin inkişafı üçün uyğun olmadığını düşünənlər ümumi iştirakçıların 18 faizidir. Respondentlərin 59 faizi bu sahənin tamamilə, 46 faizi isə qismən inkişaf edəcəyini düşünür.

Bu sahələrin inkişafını müqayisəli şəkildə analiz etmək üçün hər birinin ortalama dəyəri müqayisə olunmuşdur. Bunun üçün ilk olaraq toplanmış məlumatlar ədədi hala salınmışdır. "Razıyam" cavabının dəyəri 3, "qismən razıyam" cavabının dəyəri 2 və son olaraqda "razı deyiləm" cavabının dəyəri 1 ilə göstərilmişdir. Daha sonra təsviri statistika vasitəsilə ortalama dəyərlər tapılmışdır.

**Cədvəl 22: Müxtəlif sektorların inkişafı üzrə təsviri statistika**

| | Say | Ortalama dəyər | Standart kənarlaşma |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 200 | 2.85 | .410 |
| İctimai iaşə | 200 | 2.70 | .558 |

| | | | |
|---|---|---|---|
| Xidmət | 200 | 2.61 | .624 |
| Turizm | 200 | 2.41 | .778 |
| İstehsal | 200 | 2.66 | .580 |
| Ticarət | 200 | 2.67 | .586 |
| Say | 200 | | |

**Mənbə:** Müəllifin hesablamaları

3 üzərindən qiymətləndirilən testlərdə ortalama dəyərin 2.33-dən yüksək olması nəticənin müsbət olması kimi qiymətləndirilir. Cədvəl 22-nin nəticələri də hər sahə üzrə göstərilən dəyərdən yüksəkdir. Bu da onu göstərir ki, iştirakçıların əksəriyyəti Füzuli rayonunda verilən hər sahənin yüksək səviyyədə inkişaf potensialı olduğunu düşünür.

Müqayisə etsək görərik ki, ən yüksək dəyər kənd təsərrüfatı və ictimai iaşə sektorlarına aiddir. Bu sahələr Füzuli rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən iştirakçıların da əksəriyyətinin üstünlük verdiyi sahədir. Bu onu göstərir ki, kənd təsərrüfatı və ictiami iaşə Füzuli rayonunda ən çox inkişafı gözlənilən sahələrdir və bu səbəbdən də burada bu sektorlarda fəaliyyət göstərməyi planlayanlar çoxluq təşkil edir.

2.41 yüksək ortalama dəyər olsa da digər sahələrə nisbətən daha aşağı olmuşdur. Halbuki, iştirakçıların Füzuli rayonunda ən çox fəaliyyət göstərmək istədikləri sahələrdən biri turizm olmuşdur. Belə ki, iştirakçılardan 16-sı (8 faiz) bu sahədə fəaliyyət göstərməyi planladıqlarını bildirmişlər. Hətta onların 12-si yeni sahibkarlıq fəaliyyəti olaraq bu sahəni seçmişlər. Bu da iki sualın cavabı arasında təzad yaradır. Bu müqayisəni daha aydın görmək üçün çarpaz tablodan istifadə edilmişdir.

**Cədvəl 23: Füzuli rayonunda fəaliyyət sahələri və Turizmin inkişaf potensiyalının qiymətləndiriməsi arasında çarpaz tablo**

| | | Turizm | | | |
|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | Cəm |
| Füzuli | Heç biri | 26 | 20 | 68 | 114 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | İctimai iaşə | 4 | 10 | 14 | 28 |
| | İstehsal | 2 | 2 | 2 | 6 |
| | Kənd təsərrüfatı | 4 | 4 | 2 | 10 |
| | Ticarət | 0 | 2 | 8 | 10 |
| | Turizm | 0 | 2 | 14 | 16 |
| | Xidmət | 0 | 6 | 10 | 16 |
| Cəm | | 36 | 46 | 118 | 200 |

**Mənbə:** Müəllifin hesablamaları

Cədvəl Füzuli rayonunda turizm sahəsi ilə məşğul olmaq istəyən insanların bu sahənin inkişafı ilə razılaşdığını göstərir. Lakin sahibkarlıqla məşğul olmağı planlamayan və ya fərqli sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı planlayan iştirakçılar arasında 36 nəfər Füzuli rayonunun turizmin inkişafı üçün uyğun olmadığını düşünür. Onların 44-ü isə bu sahənin qismən inkişaf edəcəyini fikirləşdiklərini bildirmişlər. Beləliklə, turizm sahəsi iştirakçıların fikirlərinin ən çox fərqləndiyi sahə olmuşdur. Bunun əsas səbəbi işğaldan azad edilmiş digər bölgələrin turizm üçün daha əlverişli olması və işğaldan əvvəlki dövrdə bu sahənin əsas fəaliyyət sahəsi olmamasıdır. Füzuli rayonunda hava limanının tikintisi həm Füzuliyə, həm də işğaldan azad edilmiş digər bölgələrə turist səfərlərini asanlaşdıracaq.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ərazilərimizin işğaldan azad olunması sahibkarlar üçün yeni imkanlar yaradır. Kənd təsərrüfatı daxil olmaqla bir çox sahə üçün yüksək potensiyala malik olan Füzuli rayonu burada inşa edilən hava limanı ilə daha çox sahibkarların marağına səbəb olacaq. Əhalinin məskunlaşması və turizmin inkişafı öz növbəsində digər sahələrin inkişafına da gətirib çıxaracaq. Əhali və turist sayı nə qədər çox olarsa ictimai iaşə, xidmət sektorları da o qədər inkişaf edər. Turistlərin çox olduğu bölgələrdə otellərin açılması, kafe və restoranların sayının çoxalması gözlənilən nəticədir. Bundan əlavə olaraq bu, sahibkarlar üçün suvenir mağazaları, Qarabağ bölgəsinə aid xalça ticarətini, və digər bu tipli sahələrdə fəaliyyət göstərmə imkanı yaradır.

Sahibkarların Füzuli rayonunda fəaliyyət göstərməyi üçün ilk növbədə yaşayışın təmin olunması vacibli şərtdir. Belə ki, əhali bölgədə nə qədər tez və çox məskunlaşarsa sahibkarların da xidmət göstərə biləcəyi insanların sayı artmış olur. Bunun üçün tələbə sayı çox olan universitetlərdən bəzilərinin bu regionda da fəaliyyət göstərməsi təklif oluna bilər. Bu yolla həm əhalinin tək bir mərkəzə, Bakı şəhərinə, toplaşmasının və sıxlığın qarşısı alınar, həm də Füzuli rayonunda cəmiyyətin əsas hərəkətverici qüvvəsi olan tələbələr çoxalar.

Digər bir məsələ rayonun işğaldan öncəki dövrlərdə də əhalinin əsəs məşğuliyyət növü olmuş kənd təsərrüfatı sahəsnin inkişafıdır. İşğaldan azad edilmiş ərazilərimizdə 443 min hektarlıq əkin sahəsi mövcuddur. Məcburi köçkünlərin təqribən 80 faizi kənd yerlərinin sakinləridir. Belə ki, mövcud torpaqlar pay torpaqlarına bölünərsə, burada hər ailəyə 3-4 hektara yaxın əkin sahəsi ayrılmış olur. Lakin digər rayonlarda da tətbiq edilmiş bu üsulun çox yaxşı nəticə vermədiyini deyə bilərik. Belə ki, çox vaxt bu cür paylanmış torpaqlar ya satılır, ya da istifadəsiz saxlanılır. Bu da aqrar sahənin inkişaf etdirilməsinə ciddi maneə törədir. Bunun əsas səbəbi kəndlilərin nə əkəcəklərinə qərar verə bilməməsi və əkin planlarının olmamasıdır. Bu problemin həll olması üçün hansı məhsullara ehtiyacımız olduğuna dair plan olmalıdır. İlk növbədə, daxili tələbatın ödənilməsi istiqamətində işlər aparılır ki, bu da öz növbəsində ölkədən kənd təsərrüfatı məhsullarının alınması

üçün valyuta axınının azalmasına səbəb olacaq. Daha sonra xarici bazarlarda sata biləcəyimiz məhsulların çeşidini müəyyən etməklə kənd təsərrüfatı sahələri arasında istehsal bölgüsünü həyata keçirmək olar (Aghayeva, K., Hatamova, T., & Sheydai, T.,2021).

Kənd təsərrüfatı ilə əlaqədar toxunulmalı olan növbəti məsələ milli toxumların mühafizəsidir. Qarabağ bölgəsində toxum bankı yaratmaqla Milli Toxum Bankını qorumaq üçün mühüm işlər görə bilərik. Bəzi ölkələrdə toxum banklarının yaradılması faktları artıq məlumdur. Bu banklarda saxlanılan toxumlar genetik və kimyəvi müdaxilələrdən qorunur. Unudulmamalıdır ki, son illər inkişaf etmiş ölkələr daxili tələbatı ödəmək vəzifəsi ilə yanaşı, bu tələbatın da orqanik məhsullarla ödənilməsini tələb edirlər. Bu səbəbdən dünya bazarına çıxmaq üçün orqanik məhsullara üstünlük verilməsi rəqabət qabiliyyətimizi artıracaq (Aghayeva, K., Hatamova, T., & Sheydai, T.,2021).

Füzuli rayonunda açılan hava limanı nəinki sadəcə bu rayona gəlmək istəyən yerli və xarici turistləri həmçinin işğaldan azad edilmiş digər bölgələrə ziyarət etmək istəyən turistləri də qarşılayacaq. Bu səbəbdən də Şuşa şəhəri və ya Qarabağın digər ərazilərində turizmin inkişafı birbaşa Füzuli rayonuna da təsir edəcek. Bu səbəbdən də nəinki Füzuli rayonun, həmçinin ətraf rayonlarında turizminin inkişafı Füzuli iqtisadiyyatı üçün önəmli rol oynayır. Bölgədə turizmin inkişafı üçün ilk olaraq infrastruktur işləri aparılmalıdır. Ən əsası isə tarixi memarlıq abidələrinin vəziyyəti öyrənilməlidir. Bir sıra alimlər işğaldan azad edilmiş digər bölgələrdə yerləşən tarixi abidələri tədqiq etsə də, üstündən 30 il keçib. Bu səbəbdən də onlara yenidən baxılmalıdır. Buradakı abidələri bərpa etmək və onları dövlət mühafizəsinə almaq önəmli məsələlərdəndir. Gəzinti yolları çəkmək və işarələmək lazımdır. Turist xəritələrinin hazırlanması və digər işlər görülməlidir. Qarşıdakı illərdə bununla məşğul olunması planlaşdırılır. Bu işi bir sıra idarə, nazirlik və qurumlar həyata keçirməlidir. Ümumiyyətlə, Qarabağ Azərbaycan üçün yeni turizm məkanına çevriləcək. Sonrakı mərhələlərdə alimlər tərəfindən Qarabağ ərazisi birgə təhlil edəcək, yeni turizm marşrutları, turizm məhsulları yaradacaqlar. Turizm sektorunda böhran aradan qaldırıldıqdan sonra buraya çoxlu turist cəlb ediləcək. Bundan əlavə,

əhalinin məşğulluğunun təmin edilməsi və qiymətlərin daha münasib olması üçün kiçik tipli butik otellər modelinin hazırlanması bu sektorun inkişafında müstəsna rol oynaya bilər. Belə butik otellərdə ailə üzvlərinin hər biri tam məşğul olacaq və belə otellər adətən xarici turistlər üçün dörd və beşulduzlu otellərdən daha cəlbedici olur.

Bundan əlavə, turistləri cəlb etmək üçün buradakı hadisələrdən Çernobıl modeli kimi istifadə edə bilərik. ABŞ və Böyük Britaniyanın Çernobıl faciəsi ilə bağlı birgə mini-serialı böyük rezonansa səbəb olub. Böyük maraqla izlənilən miniserial Ukraynaya böyük turist axınına səbəb olub. 2019-cu ildə Ukraynanın turizm gəlirləri 2,5 dəfə artıb. Eyni üsuldan ikinci Qarabağ müharibəsinin getdiyi ərazilərdə turizmin növü olaraq istifadə edilə bilər. Müasir müharibə və qələbənin nəticələri bu bölgəyə gəlmək istəyən turistlər üçün önəmli rol oynayacaq.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 fevral 2021-ci il

2. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərman, Bakı şəhəri, 29 yanvar 2019-cu il, № 500

3. “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası”nın təsdiq edilməsi və “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 4 iyun 2020-ci il, № 1052

4. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, Bakı şəhəri, 3 may 2021-ci il, № 2620;

5. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”, 2016

6. “Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, Bakı şəhəri, 30 sentyabr 2020-ci il, № 364

7. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, (2022), İqtisadi Rayonlar Üzrə Prioritet İstiqamətlər. http://edf.gov.az/az/content/105

8. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu, (2022), Xüsusi təşkilati iqtisadi modellər http://edf.gov.az/az/content/164

9. Azərbaycan Respublikasının Vergilər Məcəlləsi

**İngilis dilində**

1. Aghayeva, K., Hatamova, T., & Sheydai, T., (2021), Defining Directions of Economic Development Policy of Karabakh Region. InterConf. https://ojs.ukrlogos.in.ua/index.php/interconf/article/download/13843/12707

2. Aras, O. N., Suleymanov, E., & Mammadov, K., (2016b), Economy of Azerbaijan. Sharg-Garb.

3. Donald Bruce, John A. Deskins, Brian C. Hill & Jonathan C. Rork, (2009), "(Small) Business Activity and State Economic Growth: Does Size Matter?", Regional Studies, 43:2, 229-245, DOI: 10.1080/00343400701808915 https://www.tandfonline.com/doi/full/10.1080/00343400701808915?scroll=top&needAccess=true

4. Gandilova, S., (2021), Features and Prospects of Development of Tourism in Karabakh. Economic and Social Development: Book of Proceedings, 1095-1099. https://www.researchgate.net/profile/Aynura-Hajiyeva-2/publication/357689108_OPPORTUNITIESANDPRIORITIESOFAZERBAIJANSTRANSITIONTOTHECONCEPTOFINCLUSIVEGROWTH/links/61db306fe669ee0f5c976ce4/OPPORTUNITIESANDPRIORITIESOFAZERBAIJANSTRANSITIONTOTHECONCEPTOFINCLUSIVEGROWTH.pdf#page=1111

5. Hajiyeva N., Karimli A., (2021), "Economic Evaluation of "Green Energy" Potential in Nagorno-Karabakh and Neighboring Regions", Modern Applied Science, 15(3), 71. https://doi.org/10.5539/mas.v15n3p71

6. Mehmetshah, I. O. K., (2021), Participation of Azerbaijan and Turkey in Ensuring Economic and Energy Security in the South Caucasus: Prospects for the Liberated Territories of Karabakh. Collection of scientific papers ΛΌΓΟΣ. https://ojs.ukrlogos.in.ua/index.php/logos/article/download/8418/8387

7. Rzayeva Z., Guliyeva A., & Miriyeva A., (2021), "Natural and economic effects of renewable energy sources in the developing countries: a case of Azerbaijan." E3S Web of Conferences, 250, 03007. https://doi.org/10.1051/e3sconf/202125003007

8. Slattery C., (2020), Evaluating State and Local Business Tax Incentives. Journal of Economic Perspectives. Published.

https://scholar.princeton.edu/sites/default/files/zidar/files/slattery-zidar-taxincentives-2020.pdf

## İnternet resursları

1. https://azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limaninin_achilis_merasimi_olub_Prezidentler_Ilham_Aliyev_ve_Receb_Tayyib_Ardogan_achilis_merasiminde_istirak_edibler_YENILANIB_VIDEO-1908966
2. https://azvision.az/news/244180/-muhum-layihe--fuzuli-neqliyyat-qovsagina-cevrilir-.html
3. https://azvision.az/news/288508/--qarabag-sahibkarliq-cennetine-cevrilecek-—-tehlil---.html
4. https://dergipark.org.tr/tr/pub/deumffmd/issue/40834/492703
5. https://marja.az/75916/hokumet-2022-ci-ilin-budcesi-ucun-goturduyu-neftin-qiymetini-aciqladi
6. https://oxu.az/economy/519675
7. https://report.az/qarabag/bas-nazir-isgaldan-azad-edilen-eraziler-vahid-konsepsiya-esasinda-berpa-edilecek/
8. https://science.gov.az/az/news/open/16136
9. https://www.agro.gov.az/az/news/aqrar-subsidiya-surasi-fermerlerin-dizel-yanacagi-ile-bagli-artan-xerclerini-kompensasiya-etmek-meqsedile-ekin-subsidiyasi-emsallarini-artirib
10. https://www.alchemer.com/resources/blog/cross-tabulation/
11. https://www.azal.az/az/article/643
12. https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721
13. https://www.ensiklopediya.az/az/fuzuli-rayonu/
14. https://www.researchoptimus.com/article/frequency-analysis.php
15. https://www.semanticscholar.org/paper/User’s-guide-to-correlation-coefficients-Ako%C4%9Flu/dd7ceee5b05eb672e850140220f7db44ead3968f
16. https://www.stat.gov.az/source/system_nat_accounts/az/007_1.xls

17. https://www.stat.gov.az/source/system_nat_accounts/az/007_1.xls
18. https://www.stat.gov.az/source/tourism/az/002_3.xls
19. https://www.virtualkarabakh.az/az/post-item/27/110/fuzuli.html

# ƏLAVƏLƏR

**Əlavə 1.**

**Cədvəl 24: Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin Bölgüsü Meyarlari**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (ig) (min manat) |
|---|---|---|
| Mikro sahibkar | 1 - 10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11 - 50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51 - 250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

**Mənbə:** "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı, 2018

## Anket sorğunun sualları:

**1. Cinsiniz:**

- Qadın

- Kişi

**2. Yaşınız:**

- 0-18 yaş
- 18-25 yaş
- 25-35 yaş
- 35-60 yaş
- 60 yaş və üstü

**3. Təhsiliniz:**

- Orta
- Bakalavr
- Magistr
- Doktorantura
- Yoxdur

**4. Hansı rayondansınız?**

- Füzuli
- Cəbrayıl
- Zəngilan
- Şuşa
- Qubadlı
- Xocalı
- Xocavənd
- Laçın
- Kəlbəcər
- Ağdam
- Ağdərə
- Digər

**5. Yaşayış üçün zəruri infrastruktur və iş imkanları qurulduqdan sonra işğaldan azad olunmuş bölgələrdə yaşamağı planlayarsınızmı?**

- Bəli
- Xeyr

**6. Sahibkarlıq fəaliyyəti ilə məşğul olursunuzmu?**

- Bəli (fərdi sahibkar)
- Bəli (mikro sahibkar)
- Bəli (kiçik sahibkarlıq)
- Bəli (orta sahibkarlıq)
- Bəli (iri sahibkarlıq)
- Xeyr

**7. Sahibkarlıq subyektinizin (müəssisənizin) adı:**

**8. Fəaliyyət növünüz:**

- Kənd təsərrüfatı
- İctimai iaşə (kafe, restoran)
- Xidmət (taksi, dərzi, bərbər və s.)
- Turizm
- İstehsal
- Ticarət
- Heç biri
- Digər:

**9. Biznesinizin filialı kimi və ya yeni bir sahibkarlıq subyekti kimi İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ fəaliyyət göstərməyi planlayarsınızmı?**

- Kənd təsərrüfatı
- İctimai iaşə (kafe, restoran)
- Xidmət (taksi, dərzi, bərbər və s.)
- Turizm
- İstehsal
- Ticarət
- Heç biri
- Digər:

**10. Biznesinizin filialı kimi və ya yeni bir sahibkarlıq subyekti kimi FÜZULİ RAYONUNDA fəaliyyət göstərməyi planlayarsınızmı?**

- Kənd təsərrüfatı
- İctimai iaşə (kafe, restoran)
- Xidmət (taksi, dərzi, bərbər və s.)
- Turizm
- İstehsal
- Ticarət
- Heç biri
- Digər:

**11. Sizcə Füzuli rayonu aşağıdaki hansı sahələr üzrə inkişaf etdirilməlidir?**

| | Razıyam | Qismən razıyam | Razı deyiləm |
|---|---|---|---|
| Kənd təsərrüfatı | | | |
| İctimai iaşə (kafe, restoran) | | | |
| Xidmət (taksi, dərzi, bərbər və s.) | | | |

| | | | |
|---|---|---|---|
| Turizm | | | |
| İstehsal | | | |
| Ticarət | | | |

**12. Füzuli rayonunda biznes muhitinin inkişaf etdirilməsi üçün təklifləriniz nələrdir?**

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Brent markalı neftin 1 barelinin proqnozlaşdırılan orta illik qiyməti, ABŞ dolları ilə 13
**Cədvəl 2:** İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı (əsas qiymətlərlə)..........15
**Cədvəl 3:** 2006-2020-ci illərdə Azərbaycanda turizmin inkişafı..........39

**Cədvəl 4:** Cinsiyyət faktoru üzrə frekans analizi....47
**Cədvəl 5:** Təhsil səviyyəsinə görə frekans analizi....48
**Cədvəl 6:** Rayon üzrə frekans analizi....49
**Cədvəl 7:** İşğaldan azad edilmiş ərazilərdə məskunlaşma planı ilə bağlı frekans analizi....49
**Cədvəl 8:** Rayon və yaşama planı üzrə çarpaz tablo analizi....50
**Cədvəl 9:** Rayon və yaşama planı arasında çarpaz tablo....52
**Cədvəl 10:** Rayon və yaşama planı üzrə Chi-Square Testi....52
**Cədvəl 11:** Rayon və yaşama planı üzrə Phi and Cramer's V testi....53
**Cədvəl 12:** Sahibkarlıqla fəaliyyəti üzrə frekans analizi....54
**Cədvəl 13:** Sahibkarlıq subyektləri və fəaliyyət sahələri arasında çarpaz tablo....56
**Cədvəl 14:** Fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər arasında çarpaz tablo....60
**Cədvəl 15:** Fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər üzrə Chi-Square Testi....62
**Cədvəl 16:** Fəaliyyət növləri və işğaldan azad edilmiş rayonlarda planlanan fəaliyyətlər üzrə Phi and Cramer's V testi....62
**Cədvəl 17:** Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər arasında çarpaz tablo....63
**Cədvəl 18:** Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər üzrə Chi-Square Testi....64
**Cədvəl 19:** Fəaliyyət növləri və Füzulidə planlanan fəaliyyətlər üzrə Phi and Cramer's V testi.65
**Cədvəl 20:** Etibarlılıq testi....66
**Cədvəl 21:** Müxtəlif sektorların inkişafı üzrə frekans analizi....66
**Cədvəl 22:** Müxtəlif sektorların inkişafı üzrə təsviri statistika....67
**Cədvəl 23:** Füzuli rayonunda fəaliyyət sahələri və Turizmin inkişaf potensiyalının qiymətləndiriməsi arasında çarpaz tablo....68
**Cədvəl 24:** Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin Bölgüsü Meyarlari....77

## Qrafiklərin siyahısı

**Qrafik** 1: Yaş faktoru üzrə frekans analizi....47
**Qrafik 2:** Sahibkarlıq subyektləri arasında frekans analizi....54
**Qrafik 3:** Fəaliyyət növləri üzrə frekans analizi....55
**Qrafik 4:**Fəaliyyət sahələri üzrə qruplaşdırılmış bar diaqramı....57